

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycana Qələbələr yaraşır!



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
01 may 2024-cü il, çərşənbə
№ 075 (6661)
Qiyməti 60 qəpik

# Mədəniyyətlərarası dialoq: Tarixdən müasirliyə



Bax səh. 2

# Vətən və xalq naminə fədakarlıq

Azərbaycan xalqının və dövlətinin tarix səhnəsində şərəfli yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub-saxlamasını təmin edən dahi şəxsiyyət Heydər Əliyev olmuşdur. İctimai-siyasi sabitliyin qorunmasının, dinamik iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin mükəmməl inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Ümummilli Lider Heydər Əliyevin sovet dönəmində və müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə xalqın rifah halının yaxşılaşdırılması, respublikanın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik misilsiz işlər görülmüşdür. Keçmiş SSRİ-nin tərkibində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə üzləşmişdi. 1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə həyata keçirilən dərin islahatlar, görülən tədbirlər respublikamızın strateji inkişafını təmin edən mühüm mərhələnin başlanğıcı oldu. Qısa müddətdə Azərbaycan ittifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı, elektronika, maşınqayırma, metallurgiya və digər sahələrdə əhəmiyyətli irəliləyişlər əldə etdi. Milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində önəmli tədbirlər görüldü.

1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilinin rəsmi dövlət dili olmasını təsbit edən maddə daxil edildi. Bundan başqa, “Müasir Azərbaycan dili” və “Azərbaycan dili” dərslikləri hazırlandı. Siyasi-ideoloji müstəvidə görülən bütün işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar idi. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın...

Bax səh. 4

# Vasitəçisiz görüş... Almatı müzakirələri nə vəd edir?

Bax səh.3

## 3-cü iclas...
## Sülhə daha bir dəstək Dohadan gəldi

Aprelin 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qətərin Doha şəhərində keçirilən Ərəb Dövlətləri Liqası - Mərkəzi Asiya - Azərbaycan Respublikası Əməkdaşlıq və İqtisadi Forumunun 3-cü iclasında iştirak edib. Tədbirdə çıxışı zamanı Azərbaycanın tarixi və mədəni tellərlə bağlı olduğu Mərkəzi Asiya və Ərəb ölkələri ilə diplomatik və iqtisadi münasibətlərin inkişaf perspektivlərindən bəhs edən nazir Ceyhun Bayramov, Forum çərçivəsində aparılan müzakirələrin müxtəlif, o cümlədən enerji təhlükəsizliyi, nəqliyyat, turizm, kənd təsərrüfatı, yüksək texnologiyalar sənayesi üzrə əməkdaşlıqla bağlı konkret yol xəritəsinin formalaşmasına töhfə verdiyini qeyd edib. Azərbaycanın geniş anlamda regionda güclü iqtisadiyyatların qurulması, habelə qlobal çağırışlarla mübarizə sahəsində birgə fəaliyyətə hər zaman hazır olduğu vurğulanıb.

Nazir Azərbaycanın Avrasiya məkanında istər Orta Dəhliz vasitəsilə Mərkəzi Asiyadan keçməklə Avropa və Çin arasında, istərsə də Körfəz ölkələrinə qapı açmaqla Şimal və Cənub arasında strateji yerləşmə mövqeyi, infrastruktur imkanları və biznes yönümlü şəraitinin regional əməkdaşlıq və bağlantıların inkişafı üçün mərkəz kimi diqqət çəkdiyi bildirib. Xüsusilə, geniş alternativ enerji potensialına malik olan ölkəmizin bu sahədə sərmayələrin təşviqinə əhəmiyyət verdiyi, bu istiqamətdə artıq Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, habelə Səudiyyə Ərəbistanın “ACWA Power” şirkətləri ilə birgə bərpaolunan enerji layihələrinin reallaşdırılmasının əhəmiyyəti qeyd olunub. Ölkəmizin alternativ enerji ixracı, habelə Avropanın enerji təhlükəsizliyinə daha bir töhfəsi ola biləcək Qara Dəniz Sualtı Kabel təşəbbüsünün irəlilədilməsindən bəhs edən nazir bu layihədə həmçinin digər Xəzər hövzəsi ölkələrinin iştirakı üçün potensialın olduğunu diqqətə çatdırıb.

Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu...

Bax səh. 5




## YAP Mərkəzi Aparatının rəhbəri ilə Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri arasında görüş keçirilib

Bax səh. 5

## Azad sahibkarlığın Azərbaycan modeli...

Bax səh. 5

## Qərb “ demokrat dostunu” necə unutdu?

Bax səh. 6

## “Sinxron düşüncələrin”girdabında...

Bax səh. 7

## Neft gəlirləri azalsa da...

Son bir həftə ərzində dünya birjalarında neftin qiymətlərində yenidən dalğalanmalar baş verməkdədir. Belə ki, dünya bazarında neftin orta satış qiyməti 80-83 dollar arasında dövr edir, son bir həftə ərzində “Brent” markalı neft 10 sent ucuzlaşaraq 88,30 dollar, ABŞ-nin Qərbi Texas nefti 13 sent ucuzlaşaraq 82,50 dollar olub. Bu, aprelin ikinci yarısında təxminən 6-7 dollar qiymən enməsi deməkdir. Neftin qiymətinə ilin ilk aylarında Yaxın Şərqdə baş verən gərginliklərlə bağlı istehsalçılar tərəfindən hasilatın azaldılması, neft tədarükünün pozulması ilə bağlı narahatlıqlar təsir edərək bahalaşmasına səbəb olsa da, son günlərdə tədarük sxemlərinin bərpası qiymətlər sıçrayışlarının qarşısını alıb. Bu,“Azeri Light” neftinin də 2 dollar ucuzlaşmasına səbəbə olub.

Onu da qeyd edək ki, 2024-cü ilin ilk 3 ayı ərzində neftin dünya birjalarında orta qiyməti 85 dollardan yüksək olub ki, bu da neft ixrac edən ölkələr üçün məqbul qiymət şkalası hesab olunur. Bu dövrdə sərfəli qiymətlərə baxmayaraq, Dövlət Neft Fondunun (DNF) gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə azalıb. Belə ki, birinci rübdə Fondun gəlirləri 5 milyard 268 milyon manat təşkil edib ki, onun 3,4 milyard manatı neft və qaz satışından daxilolamalardır. DNF mənfəət neftinin və qazın satışından 2 milyard 645,5 milyon manat, bonus ödənişlərindən 775,9 milyon manat, tranzit gəlirlərindən 3 mln. manat qazanıb. Ancaq ötən ilin eyni dövründə Fondun mənfəət neftinin və qazın satışından gəlirləri 4,8 milyard manat olmuşdu. Yəni, həmin sahə üzrə gəlirləri ən azı 2 milyard manat azalıb. Bunun əsas səbəbi ötən illə nisbətdə neft ixracının həcminin aşağı düşməsi, qismən də olsa qiymətlərin aşağı olmasıdır.

Ancaq bütün bunlara baxmayaraq, qeyri-neft sektorlarındakı mövcud potensialların səfərbər edilməsi və əlavə dəyər gətirən mənbələrin iqtisadi səmərəliliyinin artırılması...

Bax səh. 5

## Fransanın Türk xofu...



Bax səh. 6

## Korrupsiya və böhtan yuvası...



Bax səh. 6

# Müxtəlif mədəniyyətlərin nümayəndələri arasında əlaqələrin qurulmasına töhfə



## Prezident İlham Əliyev Pakistanın MUSLİM İnstitutunun direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirin müxtəlif mədəniyyətlərin nümayəndələri arasında əlaqələrin qurulması işinə töhfə verdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycan-Pakistan əlaqələrinə toxunularaq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif məsələlərlə bağlı Azərbaycanın və Pakistanın daim bir-birini dəstəkləməsinin önəmi vurğulandı.

Görüşdə Ulu Öndər Heydər Əliyevin Pakistana səfərinin ölkələrimiz arasında əlaqələrin təməlini qoyduğu qeyd edildi və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və görüşlərin münasibətlərimizin möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

# Dünyanın maraq göstərdiyi tədbir



## Prezident İlham Əliyev ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin və Stirlinq Fondunun nümayəndələrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəminə toxunularaq, bu tədbirin beynəlxalq miqyasda mədəniyyətlərarası dialoqun genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Forumda müxtəlif ölkələrdən çox sayda nüfuzlu qonağın iştirak etməsi bu tədbirə dünyada göstərilən marağın nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfə barədə danışıldı, ölkəmizdə tarixən müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin vahid bir ailə kimi dinc və sülh şəraitində yaşadıqları məmnunluqla vurğulandı.

# Mədəniyyətlərarası dialoq: Tarixdən müasirliyə

Bu gün dinlər və mədəniyyətlərarası münasibətlər baxımından dünyanın mənzərəsi heç də ürəkaçan deyil. Əslində, indiyədək bəşəriyyət fərqli etiqadların daşıyıcısı olan insanların elmə, təhsilə, mədəniyyətə, iqtisadiyyata verdikləri töhfələr sayəsində yüksək inkişaf səviyyəsinə yüksəlib. Bugünkü ümumbəşəri sivilizasiyadan bütün xalqların mirasları keçir. İnsanlar arasında tarixdən, coğrafiyalardan, gendən, irqdən gələn fərqlilik dünyanı daha rəngarəng və cəlbedici edir. Ancaq təəssüf doğuran haldır ki, bu gün dünyada xalqlar arasındakı mədəni-dini müxtəliflik bir sıra hallarda ayrıcı xətlər anlamında qəbul edilir. Biz müşahidə edirik ki, xüsusilə də Avropanın ayrı-ayrı ölkələrində multikulturalizm ideyalarından imtina olunur, milli-dini-irqi zəmində dözümsüzlük artır, İslamofobiya təzahürləri açıq müstəviyə keçir. Ən acınacaqlı cəhət ondan ibarətdir ki, bütün bunlar bir sıra hallarda məhz dövlətlər səviyyəsində təşviq olunaraq ideoloji platforma qismində cəmiyyətlərə təlqin edilir. Belə bir şəraitdə zəngin tolerantlıq ənənələrini qoruyaraq tarixdən müasir həyatına

## Azərbaycanın nadir tolerantlıq nümunəsi

daşıyan Azərbaycan dünyaya nadir nümunəsini təqdim edir.

*Mübariz ABDULLAYEV*




## Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlayan "Bakı Prosesi"

Milli-mənəvi dəyərlərə sıx bağlı olan, eyni zamanda müasir düşüncə tərzi ilə fərqlənən Azərbaycan Prezidenti İlham Əliyev daim qlobal həmrəyliyin möhkəmlənməsinə hesablanan yeni-yeni təşəbbüslər irəli sürür. Bu gün dünyada İlham Əliyev kimi, multikulturalizm ideyalarının qorunub saxlanılmasına və daha da zənginləşdirilməsinə səmimi şəkildə çağırışlar edən liderlərin sayı elə də çox deyil. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan "Bakı Prosesi" mənəvi-mədəni dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif mədəniyyətlər və dinlər arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürülmüş və qlobal hərəkata çevrilmiş "Bakı Prosesi" çərçivəsində respublikamızda müntəzəm olaraq müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Bakı Beynəlxalq Humanitar Forumuna, eləcə də Dünya Dini Liderlərinin Sammitinə, Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumuna məmnuniyyətlə ev sahibliyi edir. Sadalanan platformalar çərçivəsində qloballaşma şəraitində milli mədəniyyətlərin qorunması, eləcə də dünyada birgəyaşayışın təmin edilməsi ilə bağlı yaranan çağırışlar əhatəli şəkildə müzakirə olunur və səmərəli təkliflər səsləndirilir. Diqqət çəkən ən önəmli məqamlardan biri ondan ibarətdir ki, Azərbaycan "Bakı Prosesi" çərçivəsində Avropa İttifaqı (Aİ) məkanında və İslam coğrafiyasında yerləşən ölkələrin rəsmi şəxslərini və cəmiyyətlərinin təmsilçilərini bir araya toplamağa nail olur. Bu, dünya üzrə barışıq, inam mühitinin möhkəmlənməsi naminə atılan çox mühüm bir addımdır. Eyni zamanda, mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilən bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin təbliği baxımından da son dərəcə önəmlidir. Tədbirlərə qatılan qonaqlar respublikamızdan zəngin təəssüratlarla ayrılırlar və öz ölkələrinə çox mühüm mesajlar aparırlar.

Artıq respublikamız sayca altıncı olan Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edir. Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara, ümumilikdə, 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş Forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.




Mayın 1-dən 3-dək davam ediləcək VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda keçirilir. Tədbirə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq qatılıb. Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər. Üç gün davam edəcək Forum çərçivəsində 12 panel müzakirə və 4 plenar sessiyanın keçirilməsi nəzərdə tutulur. Forumda təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, dini müxtəlifliyin qorunması, qanunsuz miqrasiya və digər məsələlər müzakirə ediləcək. Forum iştirakçılarının Azərbaycanın 30 illik işğaldan azad edilmiş ərazilərinə səfərlərinin təşkili də gözlənilir. Tədbir çərçivəsində Ağdamda və Şuşada xüsusi panel sessiya-

## Vacib qlobal platforma

ların keçirilməsi planlaşdırılıb. Bu, eyni zamanda, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdən beynəlxalq ictimaiyyətə müraciət üçün bir platforma yaratmaq fürsətidir.

Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan tədbir mötəbər beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı (UNAOC), UNESCO, ISESCO və BMT-nin Ümumdünya Turizm Təşkilatının tərəfdaşlığı ilə keçirilir. Onu da əlavə edək ki, ötən dövr ərzində "Bakı Prosesi" BMT tərəfindən mədəniyyətlərarası dialoqa dair vacib qlobal platforma kimi qəbul olunub.




## Milli dəyərlərə və milli maraqlara əsaslanan siyasət

Hər bir xalq öz milli kimliyini dərk etdikdə başqa mədəniyyətlərə də hörmətlə yanaşa bilər. Qloballaşma şəraitində ölkəmizi fərqləndirən və respublikamızı daha güclü edən amillərdən söhbət açarkən ilk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycan tarixdən gələn milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsinə böyük önəm verən dövlətdir. Dünya birliyinin suveren aktoru olan respublikamızın ideoloji əsasları, daxili və xarici siyasətin prioritetləri məhz milli dəyərlər və milli maraqlar üzərində formalaşıb.Bu siyasətin əsasını və möhkəm özülünü isə Ulu Öndər
Heydər Əliyev formalaşdırıb. Mədəniyyətimizin Heydər Əliyev erası xalqımızın bütövlükdə milli-mənəvi dəyərlərə yeni münasibətinin formalaşdığı dövr kimi xarakterizə olunmaqdadır. Bu dövrün mədəni tərəqqisinin əsas xarakteristikası ondan ibarətdir ki, Ulu Öndərin yaratdığı və həyata keçirdiyi mədəniyyət siyasəti ölkəmizin milli-mənəvi dəyərlərinin qorunmasına, təbliğinə və inkişafına güclü zəmin yaradıb, onu yeni-yeni çalarlarla zənginləşdirib.

Sonrakı mərhələdə Prezident İlham Əliyev Ulu Öndərimizin əsasını qoyduğu siyasəti eyni ardıcıllıqla davam etdirib. Prezident İlham Əliyev Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri ilə keçirdiyi görüşlərdə zəngin tariximizin, milli-mənəvi dəyərlərimizin qürur mənbəyimiz olduğunu dəfələrlə bəyan edib. "Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır", - deyə dövlətimizin başçısı ölkəmizin "Bakı prosesi" çərçivəsində ev sahibliyi etdiyi qlobal tədbirlərdən birində vurğulayıb.

Ümumiyyətlə, milli-mənəvi dəyərlərin qorunması, cəmiyyətdən gələn sosial sifarişlərin dövlət siyasətində prioritet istiqamətlər kimi müəyyənləşdirilməsi Prezident İlham Əliyevin fəaliyyətindən qırmızı xətt kimi keçir. Dövlət başçısı qloballaşma şəraitində milli dilimizin inkişafına və yad təsirlərdən qorunmasına, Azərbaycan ədəbiyyatının latın qrafikası ilə nəşrinə, zəngin mədəniyyətimizin təbliğinə, tariximizin araşdırılmasına dair çoxsaylı Fərman və sərəncamlar imzalayıb. Ölkəmizdə gənc nəslin milli ruhda tərbiyə olunması diqqət mərkəzində saxlanılır. Dövlətin hərtərəfli qayğısı sayəsində cəmiyyətdə xalqımızın milli-mənəvi dəyərlərinə böyük bağlılıq yaranıb. Ölkəmizdə bütün milli və dini bayramlar dövlət səviyyəsində qeyd edilir.

O cümlədən İslam dəyərləri xalqımızın milli-mənəvi dəyərlərinin ayrılmaz hissəsini təşkil edir. İslam dini Azərbaycan xalqının həyatına VII əsrdən başlayaraq daxil olub və həmin dövrdən etibarən milli-mənəvi dəyərlərimizin formalaşmasında və zənginləşməsində mühüm rol oynayıb. Eyni zamanda, ölkə ərazisində mövcud olan Əshabi-Kəhf ziyarətgahı, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə "İmamzadə" kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər.

Onu da qeyd edək ki, ölkəmiz İslam dövlətləri və təşkilatları ilə mədəniyyət sahəsində sıx əməkdaşlıq həyata keçirir. Təsadüfi deyil ki, Azərbaycanın milli mədəniyyətində İslam dəyərlərinin əhəmiyyətli yer tutması, Azərbaycan mədəniyyətinin formalaşmasında və inkişafında bu dəyərlərin əvəzsiz rol oynaması, xalqımızın İslam sivilizasiyasına böyük töhfələr, yüksək mədəniyyət nümunələri bəxş etməsi nəzərə alınaraq Bakı şəhəri 2009-cu il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan olunub, həmçinin İslam Konfransı Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı Bakıda keçirilib.

## Ölkəmizin zəngin multikultural mühiti

Ölkəmizin mədəniyyətlərarası dialoq platformalarına ev sahibliyi etməyə hər cəhətdən haqqı vardır, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Azərbaycan çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olmasını özünün böyük sərvəti sayır. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda bütün dinlərə aid icmalar sərbəst şəkildə fəaliyyət göstərirlər. "... Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan qədim tarixə malik ölkədir və bunu bir sıra amillər təsdiqləyir. O cümlədən zəngin tariximizin izləri respublikamızın ərazisindəki çoxsaylı abidələrdə də öz əksini tapıb. Diqqəti çəkən məqam həm də ondan ibarətdir ki, ölkə ərazisindəki bu günümüzədək gəlib çatan dini abidələr yalnız bir mədəniyyətə, deyək ki, hazırda əhalinin böyük əksəriyyətinin etiqad bəslədiyi İslam sivilizasiyasına aid deyil. Əksinə, paytaxt Bakıda və respublikanın bölgələrində mövcud olan dini abidələr müxtəlif sivilizasiyaların izlərini özlərində qoruyub saxlayır. Bu, o deməkdir ki, dini dözümlülük, multikultural dəyərlər Azərbaycanda tarixən mövcud olub və bu gün də yaşamaqdadır. Dövlət başçısının qeyd etdiyi kimi, bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən, onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar.

Aşağıdakı faktlar deyilənləri bir daha təsdiqləyir. Azərbaycan xalqı qürur duyur ki, İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Söhbət Şamaxı Cümə məscidindən gedir. 743-cü ildə inşa olunan bu dini abidə Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir və hazırda tarixi abidə kimi qorunur. Xatırlatmaq yerinə düşər ki, bir neçə il bundan əvvəl burada əsaslı təmir işləri həyata keçirilib.

Bəhs olunan Şamaxı Cümə məscidi İslam sivilizasiyasını əks etdirir. Eyni zamanda, ölkəmizin ərazisində qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir. Həmçinin bu kilsə də Qafqazın ən qədim tarixi abidələrindən biridir.

Digər bir nümunəyə diqqət yetirək. Bakının Suraxanı rayonunda Atəşgah yerləşir. Bu abidə də dövlət vəsaiti ilə yüksək səviyyədə təmir edilib. Bakıda atəşpərəstlik məbədinin mövcud olması ona dəlalət edir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri var. Sonrakı dövrlərdə respublikamızda rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilib. Prezident İlham Əliyev bütün bunlara istinad edərək vurğulayıb ki, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir.

## Heydər Əliyev Fondunun davamlı töhfələri

Azərbaycanın nadir nümunəsinin ən səciyyəvi cəhəti ondan ibarətdir ki, ölkəmizdə multikulturalizm ideyaları dövlət səviyyəsində geniş təşviq edildiyi kimi, buna cəmiyyətdə də güclü dəstək göstərilir. Bu barədə söhbət açarkən Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyətini xüsusi qeyd edə bilərik. Fondun geniş əhatə dairəsinə malik olan fəaliyyətində iki istiqamət xüsusilə fərqlənir. Bunlardan biri zəngin Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin qorunmasına diqqətdir. Fondun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qeyd olunan istiqamətdə reallaşdırlan çoxsaylı layihələr sayəsində milli mədəniyyətimizin ayrı-ayrı sahələri, xüsusilə də muğamlarımız yeni inkişaf mərhələsinə qədəm qoyub. Milli-mənəvi dəyərlərimizin qorunması, o cümlədən də tarixi abidələrimizin bərpası Fondun fəaliyyətindən qırmızı xətt kimi keçir. Hazırda qurum Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə erməni vandalları tərəfindən dağıdılmış tarixi dini abidələrin bərpası ilə bağlı layihələr həyata keçirir.

Heydər Əliyev Fondu, həmçinin beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa davamlı töhfələr verir. Belə ki, Fondun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda və Romada mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa edilir. Fond ilə Müqəddəs Tax-Tac arasındakı əməkdaşlıqda mühüm əhəmiyyət daşıyan bu layihələr üç mərhələdə həyata keçirilib. Roma Papası Fransisk də ölkəmizin bu istiqamətdə səylərini yüksək qiymətləndirib.

Yeri gəlmişkən, Heydər Əliyev Fondunun beynəlxalq miqyasda uğurlu fəaliyyəti bu günlərdə ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmin tərəfindən də etiraf olunub. Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib. Qəbulda qonaq Heydər Əliyev Fondu ilə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq 2023-cü ildə Pekin şəhərində Ulu Öndərin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini xatırladıb. Azərbaycana Heydər Əliyev Fondunun dəvəti ilə səfər etdiyini deyən Yan Vanmin Fondun Çinin olduqca inandığı və sıx əməkdaşlıq etdiyi bir qurum olduğunu vurğulayıb. O, ötən illər ərzində Heydər Əliyev Fondu ilə bir çox birgə layihələr, xüsusilə gənclər arasında əlaqələrin genişləndirilməsi sahəsində layihələr həyata keçirdiklərini bildirib. Yan Vanmin Fondla əməkdaşlığın daha da möhkəmlənəcəyinə və əlaqə dairəsinin genişlənəcəyinə əminliyini ifadə edib.

# Azərbaycana Qələbələr yaraşır!

## Birinci vitse-prezidentin Avropanı mat edən Azərbaycan şahmatçısına təbriki

*Mübariz FEYİZLİ*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Azərbaycanın qadın şahmatçısı Ülviyyə Fətəliyevanı Yunanıstanın Rodos adasında təşkil edilən Avropa çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib. Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: “Əziz Ülviyyə! Parlaq qələbə münasibətilə səni ürəkdən təbrik edirəm! Əməyinə və iradənə görə çox sağ ol! Səninlə fəxr edirəm! Azərbaycana Qələbələr yaraşır!”

Xatırladaq ki, 27 yaşlı qrossmeyster bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub. O, 10 qarşılaşmada 8,5 xal toplamaqla bunu bacarıb. Zəka sahibi sonuncu turda Gürcüstan təmsilçisi Nino Batsiaşvili ilə heç-heçə edib - 0,5:0,5. Ülviyyə Fətəliyeva Avropa çempionu titulunu qazanan Azərbaycanın ilk qadın şahmatçısı kimi tarixə düşüb.

## Azərbaycan idman ölkəsidir

Ülviyyə Fətəliyevanın şahmat üzrə Avropa çempionu titulunu qazanması bütövlükdə Azərbaycan idmanının uğurudur. Son illərdə Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdmançılarımız beynəlxalq səviyyəli turnirlərdə cəsarətlə yarışlara qatılaraq qazandıqları qələbələr sayəsində himnimizi səsləndirir, bayrağımızı ucaldırlar. Bu uğurlar, əlbəttə ki, sehirli çubuq sayəsində qazanılmır - Azərbaycan adına gələn hər qələbənin arxasında dövlətin idmana və idmançılara davamlı diqqət və qayğısı dayanır. Son illərdə respublikamızda idmanın kütləviliyini təmin etmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanda aparılan düşünülmüş siyasət, o cümlədən idman sahəsində öz bəhrəsini verməkdədir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir.

Respublikamızda idmanın inkişafından və kütləviləşməsindən söhbət açarkən yeni yaradılan müasir infrastrukturun rolunu xüsusi qeyd etmək lazımdır. Yeni tikilən və yaxud yenidən qurulan arenalar, o cümlədən paytaxtda və regionlarda yaradılan 50-dək olimpiya idman kompleksləri sayəsində Azərbaycan son dərəcə müasir idman infrastrukturuna malik ölkəyə çevrilib. Hazırda ölkəmiz idman infrastrukturu təminatı baxımından dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır.

Qeyd edək ki, ölkəmizdə müasir idman infrastrukturu yaradılması istiqamətində məqsədyönlü işə 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbərliyinin dəyişməsindən sonra başlanıb. Azərbaycanda idman və çoxminli idmançılar ordusu MOK-un yeni prezidenti İlham Əliyevin simasında öz böyük hamisini tapdı. MOK-un yeni rəhbərliyinin təşəbbüsü ilə respublikamızda idman təsərrüfatının yenilənməsinə, o cümlədən də bu sahədə müasir infrastruktur qurulmasına start verildi.

Prezident İlham Əliyevin hər ilin idman nailiyyətlərinin qeyd olunduğu tədbirlərə qatılması, beynəlxalq səviyyəli yarışlarda medallar qazanmış idmançılarla görüşməsi, onları mükafatlandırması ölkəmizdə idmana marağın artmasına güclü impuls verir. 2023-cü il dekabrın 21-də Azərbaycan idmanının tarixində əbədi qalacaq əlamətdar bir hadisə yaşandı. Qeyd olunan tarixdə Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşdü. “Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını - uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi - Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir”, - deyə Prezident İlham Əliyev həmin görüşdəki çıxışında bildirib.







## Heydər Əliyev Fondunun mühüm rolu

Birinci vitse-przidentin şahmat üzrə Avropa çempionu titulunu qazanmış Ülviyyə Fətəliyevaya səmimi təbrik ünvanlaması xüsusi məna daşıyır. Hər şeydən əvvəl ona görə ki, son illərdə ölkəmizdə idmanın inkişafında şəxsən Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu müstəsna rol oynayır. Gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşan Heydər Əliyev Fondu uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onların sağlam ruhda tərbiyə edilməsi istiqamətində müxtəlif layihələr həyata keçirir. Fondun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələr yaradılır. İdmana dair bir sıra əyani vəsaitlər və nəşrlər buraxılır. Bütün bunlar da paytaxtda və regionlarda uşaqlar, yeniyetmələr və gənclər arasında idmana kütləvi maraq yaranmasına öz müsbət təsirini göstərir.

Respublikamızda bir çox sahələrdə idmanın inkişafı məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Gimnastika məhz belə sahələrdən biridir. 2002-ci ildə Mehriban Əliyevanın Federasiyanın prezidenti seçilməsi ilə bu sahənin yeni inkişaf yolunun təməli qoyulub. Mehriban xanım Əliyevanın səyləri sayəsində əslində federasiya yenidən qurulub. Təsadüfi deyil ki, Birinci xanımın rəhbər postu tutmasından bir il sonra Bakı bədii gimnastika üzrə Dünya Kubokuna ev sahibliyi etdi. Artıq ölkəmizdə həm daxili yarışlar keçirilir, həm də Dünya Kubokunun mərhələləri baş tutur. Gimnastlarımız beynəlxalq səviyyəli yarışlarda uğurla çıxış edirlər və yaxşı nəticələr qazanırlar. 2014-cü ildə Bakıda Milli Gimnastika Arenasının istifadəyə verilməsi Azərbaycan gimnastikasının inkişafı məqsədilə atılmış mühüm addım oldu. Arenada gimnastika üzrə beynəlxalq yarışların yüksək səviyyədə təşkil edilməsi üçün hər cür şərait yaradılıb. Məhz həmin ildə ölkəmizdə XXX Avropa çempionatı keçirildi. 33 ölkədən 258 idmançı Gimnastika Arenasında mötəbər yarışda qüvvələrini sınadılar.

## Əsl idman təşkilatçısı

Bütövlükdə, Mehriban xanım Əliyeva özünü əsl idman təşkilatçısı kimi təsdiqləyib. Onun bu sahədə müstəsna bacarıqları ilk dəfə ölkəmizin 2015-ci ildə ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq mərhələsində üzə çıxdı. Təşkilat Komitəsinə rəhbərlik edən Mehriban xanım Əliyeva bütün hazırlıq prosesinə şəxsən nəzarət edir və planlaşdırlan bütün layihələrin yüksək səviyyədə reallaşdırlmasına nail olmağa çalışırdı. Ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində həyata keçirilən layihələr respublikamızın idman infrastrukturunu əhəmiyyətli dərəcədə zənginləşdirib. Birinci Avropa Oyunlarına hazırlıq məqsədilə 5 müasir idman qurğusu - Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və möhtəşəm Olimpiya Stadionu inşa edilib. Bundan başqa, yüksək dünya standartları səviyyəsində yaradılan atletlər kəndi barədə də ən xoş sözləri söyləmək mümkündür.

Bunun ardınca ölkəmiz cəmi iki ildən sonra - 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Azərbaycan bu dəfə də özünün yüksək standartlarını nümayiş etdirməyə nail oldu. Bakıda 10 gün ərzində əsl idman bayramına çevrilən Oyunların yüksək səviyyədə keçirilməsindən söhbət açarkən tərkibində böyük heyəti, o cümlədən də könüllüləri birləşdirən komandanın yarışlara məsuliyyətlə hazırlaşdığını xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsi tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün təşkilati məsələləri ən xırda detallarına kimi nümunəvi şəkildə həll etmişdi. Prezident İlham Əliyev “Bakı-2017” IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşdəki nitqində ölkəmizin Oyunlara yüksək səviyyədə hazırlaşmasını qonaqlara olan böyük hörmətin və məsuliyyətin təzahürü kimi səciyyələndirib: “Biz İslam Həmrəyliyi Oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu, bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Eyni zamanda, bu, ümumiyyətlə, bizim siyasətimizi göstərir”.

# Vasitəçisiz görüş...

## Almatı müzakirələri nə vəd edir?

Qazaxıstanda keçirilməsi nəzərdə tutulan Ermənistan və Azərbaycan XİN başçıları səviyyəsində ikitərəfli görüşün mühüm nəticələr verəcəyinə böyük ümidlər var. Sonuncu dəfə Almaniyada görüşən tərəflər ötən 5 ay müddətində bir sıra razılaşmalara belə imza atıblar. Belə ki, ötən ilin dekabrında hər iki ölkənin müvafiq dövlət strukturlarının birgə açıqlamasının yayılması, qarşılıqlı olaraq hərbçilərin azad edilməsi, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağı da Azərbaycan torpaqları kimi tanıdığını bəyan etməsi, COP29-a ev sahibliyini dəstəkləməsi, bu ilin aprelində isə 4 kəndin qaytarılması ilə bağlı əldə olunan razılaşma, müvafiq delimitasiya komissiyalarının apardığı birgə müzakirələr onu göstərir ki, məsələnin vasitəçisiz olaraq həlli mümkündür. Bu mənada, Qazaxıstanda baş tutacaq ikitərəfli görüş nəticəyə yönəlik ciddi xarakter daşımaqdadır.

## Üçüncü tərəfə ehtiyac yoxdur...

Yeri gəlmişkən, Qazaxıstan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Aybek Smadiyarov bildirib ki, Qazaxıstan hakimiyyəti Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Almatıda görüşünü təşkil edərkən danışıqlarda vasitəçi rolunu oynamayacaq. Bu faktın özü mühüm məna kəsb edir. Vurğulanmalıdır ki, Azərbaycan hər zaman bu məsələni xüsusi olaraq vurğulayıb ki, aparılan danışıqlarda üçüncü tərəfə ehtiyac yoxdur. Hətta Prezident İlham Əliyev hələ 2021-ci ilin oktyabrında işğaldan azad edilmiş Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirmişdi ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir: “Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər”.

Artıq Azərbaycanın ərazi bütövlüyü təmin edilib, suverenliyi bərpa olunub. Regionda sülhün və təhlükəsizliyin təmini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi beynəlxalq gündəlikdən düşüb. Bəzi ölkələrin və təşkilatların məhz “vasitəçi” və ya “nizamlayıcı” adı altında öz fərdi maraqlarının axtarışında olması isə sirr deyil - aylardır ki, Fransanın Ermənistanı aktiv danışıqlar prosesindən yayındırmağa çalışması buna bariz sübutdur. Rəsmi Paris anlayır və görür ki, iki dövlət müzakirələr nəticəsində problemlərini həll etmək iqtidarındadırlar - sülh məhz ikitərəli təmasa əsaslanacaq. Prezident İlham Əliyev fevralın 14-də andiçmə mərasimində bu məsələyə toxunaraq bildirmişdi ki, Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər: “Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik”.

## Qazaxıstan münasibətlərin normallaşması üçün səy göstərir...

Qazaxıstana gəldikdə isə həm Azərbaycanla, həm də Ermənsitanla bu və ya digər şəkildə müttəfiqliyə malik olan, bir sıra beynəlxalq strukturlarda çiyin-çiyinə təmsilçilik daşıyan rəsmi Astana anlayır ki, Mərkəzi Asiyaya yaxın bölgədə sülhün bərqərar edilməsi mühüm əsaslar formalaşdıracaq. Cənubi Qafqazda sülhün və davamlı sabitliyin formalaşması böyük bir coğrafiyanın - Orta Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üçün yeni imkanlar, perspektivlər deməkdir. Yeni ticari xəttin əsas keçid məntəqələrindən sayılan Ermənistan və Azərbaycanın münasibətlərinin normallaşması bu seqmentin Mərkəzi Asiyadakı əsas transxətti Qazaxıstan üçün mühüm perspektivlər vəd edir - bu tranzit imkanlar bütövlükdə, qlobal iqtisadi münasibətlərə yeni ruh vəd edir. Bunun nəticəsidir ki, regional layihələrin mühüm tərəfdaşı kimi Qazaxıstan bu prosesin uğurlu həllinə nail olunmasının tərəfdarı kimi çıxış edir. Vurğulanmalıdır ki, Astananın yeni dönəmdə Ermənistan ilə Azərbaycan arasında müzakirə platformasına çevrilməsi imkanları ötən ay Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin İrəvana səfəri zamanı müzakirə predmeti olmuşdu. Qazaxıstan Prezidentinin Astananın İrəvan və Bakının sülh müqaviləsi bağlamaq istəyini alqışlamasını önə çəkməsi, xoşməramlılıq missiyasını üzərinə götürərək danışıqlar üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi isə bu fikirləri daha da qətiləşdirmişdi. Kasım-Jomart Tokayev İrəvanda brifinqdə bildirmişdi ki, “Əsas məqsədimiz dost ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq, regionda sülh və davamlı sabitlik üçün yollar açmaqdır”.



## Sülhə sədaqət...

Azərbaycanın apardığı siyasət birmənalı şəkildə beynəlxalq hüquqa əsaslanır. 6 ay öncə baş tutmuş antiterror tədbirlərindən sonrakı mərhələdə də Azərbaycan bir sıra sühpərvər çağırışlar etməklə humanizmə sadiqliyini, ikitərəfli münasibətlərdə və ən əsası sülhdə maraqlı olduğunu ortaya qoymuşdu. Bu fakt bir daha onu sübut etmişdi ki, biz birbaşa təmasın tərəfdarıyıq.

Bəli, ölkəmiz hər zaman sülhün və əməkdaşlığın bərpasına çalışıb - hətta Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə belə Azərbaycan məsələnin sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış edirdi. Konstruktiv anlaşmanı, siyasi-iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini, normal qonşuluq münasibətlərini əsas götürən Azərbaycan bu gün də eyni mövqedədir. Ölkəmiz iki ildən artıqdır ki, bölgədə sülhün və anlaşmanın hökm sürməsi üçün bütün səyini səfərbər edib. Artıq bu prosesdə müəyyən yaxınlaşmalar baş verməkdədir ki, Qazaxıstanda nəzərdə tutulan görüş buna misaldır.

Ermənistan isə regionda yeni siyasi-iqtisadi mərhələdə iştirakçı olaraq yer almaq istəyirsə, özünün əsassız iddialarından əl çəkməli və ölkəmizin önə sürdüyü 5 sülh şərti əsasında razılaşmaya imza atmalıdır. Bir sözlə, Ermənistan sülh prosesinin hazırki mərhələsinin səmərəli şəkildə yekunlaşması üçün səy göstərməlidir. Əks halda Ermənistan yeni regional, hətta qlobal səviyyəli iqtisadi layihələrdən yenə də kənarda qalma təhlükəsi yaşayacaq - Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələr isə ümumən regiona yeni inkişaf tempi qazandırmaqdadır. Ermənistan yenə də təhlükəsizlik arxitekturasına təhdid yaradan amil rolunda çıxış etməkdə “israrlı olarsa”, bu, rəsmi İrəvan üçün xoşagəlməz nəticələrə yol aça bilər.

***P.İSMAYILOV***

# Vətən və xalq naminə fədakarlıq

Azərbaycan xalqının və dövlətinin tarix səhnəsində şərəfli yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub-saxlamasını təmin edən dahi şəxsiyyət Heydər Əliyev olmuşdur. İctimai-siyasi sabitliyin qorunmasının, dinamik iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin mükəmməl inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Ümummilli Lider Heydər Əliyevin sovet dönəmində və müstəqillik illərində Azərbaycana rəhbərliyi dövründə xalqın rifah halının yaxşılaşdırılması, respublikanın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik misilsiz işlər görülmüşdür. Keçmiş SSRİ-nin tərkibində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə üzləşmişdi. 1969-cu ilin iyulunda Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra bütün sahələrdə həyata keçirilən dərin islahatlar, görülən tədbirlər respublikamızın strateji inkişafını təmin edən mühüm mərhələnin başlanğıcı oldu. Qısa müddətdə Azərbaycan ittifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı, elektronika, maşınqayırma, metallurgiya və digər sahələrdə əhəmiyyətli irəliləyişlər əldə etdi. Milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində önəmli tədbirlər görüldü.

1978-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilinin rəsmi dövlət dili olmasını təsbit edən maddə daxil edildi. Bundan başqa, "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Siyasi-ideoloji müstəvidə görülən bütün işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar idi. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın ordu quruculuğunda önəmli rol oynadı. Yeri gəlmişkən, qeyd edək ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla vuruşan Azərbaycan zabitlərinin bir qismi həmin liseyin yetirmələri idi. Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun fəaliyyətinin Naxçıvan dövrünə xüsusi nəzər salmaq lazımdır. 17 noyabr 1990-cı ildə Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Ali Sovetinin on ikinci çağırış birinci sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar iki bəndlik qərar qəbul edildi, milli dövlət quruculuğu prosesinə xüsusi diqqət yetirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı, "Ali Sovet" Ali Məclis adlandırıldı. Noyabrın 21-də "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul olundu. Bu qərarın mətnini Ulu Öndər özü işləyib hazırlamışdı.

1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan Ali Məclisinin Sədri seçilməsindən sonra muxtar respublikada sabitlik təmin edildi, sosial və iqtisadi durum yaxşılaşdı, onun düşmənin işğalı altına düşməsinin qarşısı müdrikliklə alındı, dövlətçilik ənənələrinin bərpası istiqamətində ardıcıl və məqsədyönlü işlər görüldü, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi.

1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər partiyanın sədri seçildi. YAP-ın yaranması, Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən irəli gələn tarixi zərurət idi. Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfələr verməsi Ulu Öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq qısa zaman kəsiyində xalqın etimadını qazanmağa nail oldu. 1993-cü ildə xalqın dəstəyi sayəsində Ulu Öndərin siyasi hakimiyyətə gəlməsi ilə YAP hakim partiyaya çevrildi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli Liderin zəngin dövlətçilik təcrübəsi və atdığı praqmatik addımlar sayəsində dağıdıcı proseslər aradan qaldırıldı. Təsadüfi deyil ki, Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrilmişdir. Ümummilli Liderin xalqın təkidli tələbləri ilə siyasi hakimiyyətə qayıtması respublikamızın tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Ən əsası, Azərbaycanda uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu. Dövlət quruculuğu prosesi fonunda müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbul edilməsi, parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin sürətlənməsində mühüm rol oynadı. Beləliklə, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi mühüm addımlar da xüsusi vurğulanmalıdır. Digər tərəfdən, ölkəmizdə milli həmrəyliyi daha da gücləndirən ideologiya yalnız 1993-cü ildən sonra müəyyənləşdirildi. Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən mühüm faktor oldu. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin formalaşmasını da təmin etdi. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Yeni neft strategiyası Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor kimi çıxış etdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan—Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Heydər Əliyevin titanik səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı. Münaqişənin həll edilməsi üçün təşkil olunmuş Minsk qrupunda, həmçinin ATƏT-in Zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Ulu Öndər dünya dövlətlərini münaqişəyə yanaşmada diqqətli olmağa və problemin beynəlxalq hüquq normalarına müvafiq surətdə həll edilməsi prosesində yaxından iştiraka dəvət etdi. Heydər Əliyevin əsasını qoyduğu praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizin dostlarının, tərəfdaşlarının sayını artırdı və Azərbaycan bütün dünyada sayılıb-seçilən nüfuzlu dövlətə çevrildi. Bu, bir reallıqdır ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan böyük yüksəlişə və dinamik inkişafa nail olmuşdur.



Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi yazılmışdır. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında önəmli mərhələ təşkil edir. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib. Təbii ki, bu inkişafın və sabitliyin əsasında uğurla reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə davam etdirən möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar onun rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin yazdığı möhtəşəm Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində və 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində azad edildi, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu. Prezident İlham Əliyev son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər sərkərdə oldu. Bu, həm də möhtərəm Prezidentimizin müqəddəs ATA vəsiyyətini şərəflə yerinə yetirməsini özündə ehtiva edir. Artıq Qarabağ və Şərqi Zəngəzur azaddır. Hazırda bu ərazilərdə keçmiş qaçqın və məcburi köçkünlərin Böyük Qayıdış Konsepsiyasına uyğun geri qaytarılması üçün zəruri işlər icra edilir. Məhz Ulu Öndər Heydər Əliyevin mükəmməl strategiyasının mahiyyəti də güclü, qalib, ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Azərbaycan idi.

Bütün həyatını xalqına həsr edən dahi şəxsiyyətin nurlu xatirəsi qədirbilən xalqımız tərəfindən hər zaman böyük ehtiram və dərin minnətdarlıqla yad olunur.

Görkəmli siyasi xadim, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xatirəsinə xalqımızın dərin ehtiramının ifadəsi olaraq, onun zəngin mənəvi irsinin, azərbaycançılıq fəlsəfəsinin, milli dövlətçilik ideyalarının qayəsini yeni nəsillərə aşılamaq, ölkəmizin tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək məqsədi ilə 10 may 2004-cü il tarixdə Heydər Əliyev Fondu təsis edilmişdir.

Heydər Əliyev Fondu ötən 20 il ərzində öz fəaliyyəti ilə hər zaman bu yüksək amallara sadiqliyini nümayiş etdirmişdir. Ulu Öndərin zəngin mənəvi irsinin, onun Azərbaycançılıq fəlsəfəsinin gənc nəsillərə aşılanması prosesinə töhfə vermək, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

Heydər Əliyev Fondu üzün illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilərək bütün dünyada ölkəmizi ləyaqətlə təqdim təbliğ edir. Mehriban xanım Əliyevanın qlobal təşəbbüsləri sayəsində mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq brendinə çevrilmişdir. Heydər Əliyev Fondunun dünya mədəni irsinin bərpasına yönələn xeyriyyəçilik fəaliyyəti çox geniş bir coğrafiyanı əhatə edir. Almaniyada Berlin qəsri, Versalda qədim abidələr, Fransada Aşağı Normandiyadakı kilsə və Luvr muzeyi, müqəddəs Marçellinio və Pietro qədim əlyazmaları və katakombaları, Vatikanda San Sebastian katakombaları, İtaliyada Kapitoli muzeyinin filosoflar zalı, Bolqarıstanda Trapezitsa muzeyi və digər bu kimi mədəniyyət ocaqlarında həyata keçirilən önəmli layihələr Heydər Əliyev Fonduna böyük dünya şöhrəti qazandırmışdır.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu " Tolerantlığın ünvanı - Azərbaycan " layihəsi çərçivəsində ölkəmizdə yeni məscidlər inşa etmiş, müqəddəs ziyarətgahların təmir-bərpa işlərini həyata keçirmişdir. Fond Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin mədəni özünəməxsusluğunun qoruynub saxlanması , dini ayinlərin sərbəst yerinə yetirilməsi üçün ibadət evlərinin bərpası və inşası işində də ciddi uğurlara imza atmışdır.

Fondun həyata keçirdiyi bu layihələr həm də müxtəlif mədəniyyətlər arasında dialoq və əməkdaşlıq mühitinin genişlənməsinə, qloballaşan dünyada sülh şəraitində birgə yaşayışın təmin edılməsinə təqdirəlayiq töhfələrdir.

Ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində mədəniyyətlərarası dialoq ünvanlarından biri sayılır. Azərbaycanın maddi və qeyri-maddi irsinin, xalqımızın yaratmış olduğu ənənə və dəyərlərin dunyada tanıdılması üçün yüzlərlə təqdimatlar, sərgilər və tədbirlər keçirilmişdir. İtaliyada, Rusiyada, Fransada və başqa ölkələrdə keçirilən çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa və öyrənməyə başlamışdır. Görkəmli alimlərin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, mədəni irs nümunələrinin daxil edilməsi Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində görülən təqdirəlayiq işlərdəndir. Azərbaycan muğamının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması uğurlu fəaliyyətin bariz nümunəsidir.

"Qarabağ xanəndələri" adlı musiqi albomunun, "Qarabağ həqiqətləri" bukletlər toplusunun, "Müharibə və tarixi mədəniyyət abidələrimiz", Parisdə ingilis dilində "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması", "Muğam haqqında əlyazmalar toplusu"nun nəşri Qarabağın Azərbaycanın ayrılmaz guşələrindən biri kimi dünya ictimaiyyətinə çatdırılmasında mühüm vasitə olmuşdur. Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən fəaliyyətə başlamış "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası erməni cinayətlərinin dünya miqyasında ifşası üçün əlverişli mühitin formalaşdırılmasına və faciənin dünyada tanıdılmasına önəmli töhfə vermişdir.

Ulu Öndər Heydər Əliyevin zəngin irsini təbliğ edən, onun miras qoyduğu ənənələri davam etdirən Fondun əsas fəaliyyət istiqamətlərindən biri də elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid çox sayda proqram və layihələrin hazırlanaraq həyata keçirilməsi olmuşdur.

Fond daim ölkədə savadlı, peşəkar və sağlam yeni nəslin formalaşmasına xidmət edən önəmli təşəbbüslərlə cıxış edir. Təhsil sahəsində məktəblərin, uşaq bağçalarının və uşaq evlərinin inşa edilməsi və yenidən qurulması, orta və ali təhsil məktəblərinin dərsliklərlə təmin olunması, internat məktəblərində xeyriyyə tədbirlərinin həyata keçirilməsi sahəsində böyük layihələrə imza atmışdır. Bu kontekstdə ötən illərdə "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı", "Təhsilə dəstək", "Təhsil hamı üçün", "Assosiativ məktəblər" və digər layihələrin uğurla icrası nəticəsində təhsildə, habelə savadlı və vətənpərvər nəslin formalaşdırılması prosesində əsaslı nailiyyətlər əldə olunmuşdur. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması son illər ərzində Azərbaycan təhsilinin beynəlxalq təhsil məkanına inteqrasiyasını gücləndirmiş və beynəlxalq fənn olimpiadalarında Azərbaycan məktəblisinin uğurlarının əsas təminatçısı olmuşdur. Orta məktəb və digər təhsil müəssisələrinin idman zalları ilə təchiz olunması, futbol meydançalarının, yeni salınan parklarda mini stadionların, idman qurğularının istifadəyə verilməsi, idman komplekslərinin tikilməsi ölkəmizdə idman hərəkatının genişlənməsinə səbəb olmuşdur. Sağlamlığın qorunması istiqamətində beynəlxalq tədbirlər çərçivəsində Fond Dünya Diabet Günü kampaniyasına qoşulmuş, əhalinin sağlamlığının qorunması, xüsusilə uşaqların fiziki cəhətdən sağlam böyüməsinə lazımi diqqət yetirilməsi üçün " Talassemiyasız həyat naminə" layihəsinin icrasına başlamışdır. Müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin yaradılması, diabetli, talassemiyalı xəstələrə qayğı və onların müalicəsinin təşkil edilməsi də Fondun fəaliyyətində mühüm yer tutur.

Fondun "Təhsilə dəstək" layihəsi yalnız Azərbaycanın hüdudları ilə məhdudlaşmır. Belə ki, Fondun dəstəyi ilə Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində zəlzələdən sonra dağılmış qızlar üçün orta məktəbin yeni binasının inşası da önəmli layihələrdəndir.

Xarici ölkələrdə də sosial layihələr həyata keçirən Fond Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım etmişdir. 2012-ci ilin fevralında Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yenidən qurulmuş "Dostluq parkı", 2013-cü ildə "Görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz", 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı", 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, 2018-ci ildə "Azərbaycan Biznes Mərkəzi" istifadəyə verilmişdir.

Heydər Əliyev Fondu Qarabağ ərazisində Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin, kilsələrin bərpası üzrə layihələri uğurla həyata keçirir. Şuşa şəhərində, Ağdamda dağıdılmış məscidlərin, minarələrin bərpası, yenidən qurulması, Qubadlıda, Suqovuşanda və digər ərazilərdə yeni məscidlər tikilməsi, Şuşada keçirilən mədəni-kütləvi tədbirlər məhz Fondun adı ilə bağlıdır və geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə, minnətdarlıqla qarşılanmışdır.

Azərbaycan xalqının Ümummilli Liderinin adını daşıyan, onun mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan saf ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışan, xalqımızın gələcəyi naminə əhəmiyyətli layihələri uğurla reallaşdıran Heydər Əliyev Fondu qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirərək bütün dünyada böyük nüfuz qazanmış və milyonlarla insanın ümid, pənah yerinə çevrilmişdir.



**Sevinc Hüseynova,**
**Milli Məclisin deputatı,**
**Yeni Azərbaycan Partiyasının**
**Təftiş Komissiyasının sədri**

# Korrupsiya və böhtan yuvası...

## Avropa Parlamentinin bəzi üzvləri təşkilatın ölkəmizə qarşı qərəzli mövqeyini qəbul etmir

Avropa Parlamenti Azərbaycana qarşı qərəzli münasibətini davam etdirir. Aprelin 25-də təşkilatın Azərbaycanda vətəndaş cəmiyyəti və insan hüquqları məsələsinə dair obyektivlikdən uzaq qətnamə qəbul etməsi də bunu təsdiqləyir. Bu “sənəd”də də ölkəmiz haqqında qərəzli, yalan və saxta məlumatlar yer alır. Avropa Parlamenti torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra ölkəmizə qarşı daha da aqressivləşib. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 8 qətnamə qəbul edib.

### Gəncə terrorunun ildönümündə Paşinyana “ehtiram”

Ümumiyyətlə, müstəqillik dövrümüzdə təşkilat dəfələrlə bu tipli sənədlər qəbul edib. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə də Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. Təşkilatın əvvəlki qətnamələrində Ermənistana və Qarabağ separatçılarına “sonsuz məhəbbət” həmin sənəddə öz əksini tapırdı.

Avropa Parlamenti özünü erməni sevgisini ötən ilin oktyabrında Ermənistanın baş naziri Nikol Paşinyanı Brüsseldə dəvət edib öz tribunasına çıxarması ilə də təsdiqləyib. Nəzərə alaq ki, Paşinyan Avropa Parlamentində 44 günlük müharibə dövründə Ermənistanın Gəncə əhalisinə qarşı terror hücumunun üçüncü ildönümü günündə çıxış etdi. Yəqin ki, bu təsadüf deyil, erməni xisləti və onların havadarlarının düşünülmüş addımıdır. Hansı ki, üç il əvvəl törədilmiş Gəncə terrorunda 15 nəfər mülki insan həlak olmuş, 55 nəfər isə yaralanmışdı. Terror hücumu nəticəsində çoxlu sayda mülki infrastruktura da ziyan dəymişdi. Bütün bunlar isə Avropa Parlamentinin demokratik dəyərlərdən, obyektivlikdən və beynəlxalq hüquqdan tamamilə uzaq olduğunu göstərir.

### Tomaş Piotr təşkilatın işini niyə pislədi?

Yeri gəlmişkən, qeyd edək ki, aprelin 29-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin üzvü Tomaş Piotr Poreba ilə görüşüb. Görüş zamanı Səməd Seyidov Cənubi Qafqaz regionunun aparıcı ölkəsi kimi Azərbaycanın zəngin iqtisadi potensialı barədə danışıb, ölkəmizin unikal coğrafi mövqeyinin Avropa və Asiyanı birləşdirən mühüm körpü rolunu oynadığını bildirib. Azərbaycanın Mərkəzi Asiyanın resurslarla zəngin regionlarını Avropanın sənaye mərkəzləri ilə əlaqələndirəcəyinə dair perspektivlərdən söz açan komitə sədri diqqətə çatdırıb ki, gələcəkdə regionun bütün ölkələri bu nəqliyyat platformasından faydalana biləcəklər.





Azərbaycanın 2020-ci ildə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra başda Fransa olmaqla bəzi ölkələrin, həmçinin bir sıra beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirdiyini deyən Səməd Seyidov bu dairələr tərəfindən aparılan böhtan və qarayaxma kampaniyalarını pisləyib.

Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin üzvü Tomaş Piotr Poreba səfərinin məqsədləri barədə məlumat verib. İlyarım əvvəl Azərbaycana birinci səfəri zamanı işğaldan azad olunmuş Şuşa şəhəri ilə tanışlığından bəhs edən qonaq, regionda cərəyan edən tendensiyalara və gələcək inkişaf perspektivlərinə toxunub, Azərbaycan və Ermənistan arasında delimitasiya üzrə danışıqların müsbət nəticələrindən məmnunluğunu ifadə edib.

Son dövrlərdə Avropa Parlamentinin ölkəmizə qarşı qərəzli və ikili standartları özündə ehtiva edən mövqeyini pisləyən qonaq bu mövqeyi ədalətsiz və məntiqə sığmayan addım kimi dəyərləndirib.

Görüşdə komitənin üzvü Tural Gəncəliyev Azərbaycan ilə Avropa İttifaqı arasında qarşılıqlı faydalı əməkdaşlıqdan söz açıb, ölkəmizin qurumla nəqliyyat və logistika sahəsində də əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

### Təşkilat erməni lobbisinin alətinə çevrilib

Tomaş Piotr Porebanın Avropa Parlamentinin ölkəmiz haqqında qərəzli mövqeyini pisləməsi onu göstərir ki, təşkilat daxilində obyektiv mövqe tutan deputatlar da var. Belə şəxslər haqlı olaraq digərləri ilə fikir ayrılığındadır və qeyri-obyektiv fəaliyyəti qəbul etmirlər. Amma Avropa Parlamentində obyektiv deputatların sayı çox deyil. Çünki təşkilat erməni lobbisinin əlində alətə çevrilib. Təsadüfi deyil ki, bu qurum siyasi korrupsiyanın yuvası hesab edilir. Ötən il Avropa Parlamentinin Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin adının milyonlarla dollarlıq korrupsiya ilə gündəmə gəlməsi də buna sübutdur. İrqçi, islamafob, Azərbaycanofob, türkofob mövqeyi və ikili standartları ilə tanınan Avropa Parlamentinin rəhbər şəxslərindən birinin adının belə çirkin korrupsiya faktlarında hallanması təsdiqlədi ki, təşkilatda müxtəlif ölkələrlə bağlı qərarların verilməsində ədalət tərəzisinin əyilməsinə, beynəlxalq prinsiplərin arxa plana keçirilməsinə, lobbi maraqlarının önə çəkilməsinə, imperialist güc mərkəzlərinin maraqlarının birtərəfli qaydada təmin edilməsinə dair çoxsaylı faktların olması ilə bağlı informasiyalar həqiqəti əks etdirir. Nəzərə alaq ki, bu siyahı təkcə yunan deputatla yekunlaşmır. Ötən ilin fevralında Avropa Parlamentində öz mövqelərini dəstəkləmək müqabilində Qətər və Mərakeşdən rüşvət almaqda şübhəli bilinən Avropa Parlamentinin deputatları Andrea Kozzolino və Mark Tarabella həbs edilərək Brüssel prokurorluğunda dindiriliblər. Hər iki siyasətçi Avropa İttifaqında qərarlara təsir etmək üçün “üçüncü ölkələr”dən müavinət almaqda ittiham olunub.

Bütün bunlar göstərir ki, korrupsiya, şər-böhtan yuvası olan Avropa Parlamentinin ölkəmiz haqqında qəbul etdiyi qətnamələr tamamilə əsassızdır. Hüquqi qüvvəsi olmayan bu sənədlər əslində, kağız parçasından başqa bir şey deyil.

*Nardar BAYRAMLI*

# Fransanın Türk xofu...

## Paris yeni qondarma iddialarla özünü ifşa edir

Fransanın apardığı anti-Türk təbliğatı yeni müstəviyə daşınır. 2020-ci ildə Fransa Senatı qondarma “erməni soyqırımı”nı inkara görə cinayət məsuliyyəti nəzərdə tutan qanun qəbul edilməsi ilə özünün əsl simasını dünyaya nümayiş etdirən Paris bununla hər hansı bir uğur qazana bilmədi - gözlənildiyinin əksinə olaraq, Fransanın bu qeyri-qanuni və əsassız addımı Avropada presedent kimi qəbul olunmadı. Beləliklə, qondarma “erməni soyqırımı” məsələsi üzərindən aparılan çirkin təbliğat iflasa uğradı.

Görünən budur ki, Paris özünün əsassız iddialarından əl çəkmək fikrində deyil. Tam əksinə, Türkiyəyə qarşı apardığı kampaniyanın “sərhədlərini” daha da genişləndirmək istəyir. Fransa Milli Assambleyası 29 aprel 2024-cü il tarixli assuriyalılar və keldanilər haqqında qərarında Osmanlı dövrünə dair hüquqi və tarixi əsası olmayan ittihamlar irəli sürülməsi də buradan qaynaqlanır. Fransızlar Osmanlının bu “xalqlara” qarşı da “soyqırımı” apardığı iddia olunur ki, bu da tarixi saxtakarlıqdan başqa bir iddia deyil.

Vurğulayaq ki, Türkiyə Xarici İşlər Nazirliyi məsələ ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, ötən il Fransa hökuməti Senatının qəbul etdiyi oxşar qərarı dəstəklədiyini açıqlamışdı. “Hakim partiyanın deputatları tərəfindən bu dəfə də eyni əsassız ittihamların Assambleyanın müzakirəsinə çıxarılması siyasi maraqlar naminə tarixi təhrif etmək cəhdinin bir nümunəsidir. Parlamentlərin tarixi şərh etmək və mühakimə etmək səlahiyyəti yoxdur.

Bu qərar həm də BMT Baş Assambleyasının soyqırımı cinayətinin yalnız səlahiyyətli məhkəmə tərəfindən ittiham oluna biləcəyini nəzərdə tutan 1948-ci il tarixli “Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında” Konvensiyasına ziddir”.

### Assurlar və keldanilər kimdir?

Bəzi mənbələrdə “assuriyalı”, bəzi mənbələrdə isə “aysorlar” kimi tanınan və Yaxın Şərqdə məskunlaşmış bu xalq əsasən İraq və Suriya ərazisində yaşayırlar. Dünyada assuriyalıların sayı təqribən 503 min (2010-cu il) nəfərdir. Assuriyalılar yaxın etnik qruplarla birlikdə aramiləri əmələ gətirirlər ki, onların da cəmi saylarının 959 min - 3.3 milyon nəfər olduğu ehtimal edilir və asoru dilində danışırlar.

Aysorların tarixi iki dövrə bölünür; bütpərəst aysorlar və xristian aysorlar. Miladdan əvvəl bütpərəst olan aysorlar xristianlığın Mesopotamiyada yayıldığı dövrdə yeni təlimi mənimsəyirlər və beləliklə, onlar üçün yeni dövr başlayır. Aysorlar miladın 37-ci ilində kilsə ətrafında birləşərək, icma formalaşdırırlar. Antakyadan sonra qurulan Urfa Aysor Kilsəsi ilə birlikdə bölgədəki bir çox xalqlar xristianlığın çətiri, İsa Məsihin təlimi ətrafında birləşirlər. Xristianlığın parçalanmasından zərər görən aysorlar tarixçilər tərəfindən Şərqi və Qərbi Aysorlar adlandırılıblar. Qərbi Aysorlar Diyarbəkir, Antakya, Maraş, Urfa, Mardin, Midyat, Nusaybir və Suriyada yaşayanlardır. Şərqi aysorlara isə İran, İraq və Hindistan coğrafiyasında yaşayanlar şamil edilir. Osmanlı dövründə də hazırkı ərəb coğrafiyasında yaşayan assurlar digər təbəqələr kimi dövlətin imtiyazlarından istifadə ediblər. Əgər Osmanlı imperiyası onları “soyqırımına” məruz qoymuşdusa, nə üçün assurlar bu gün də həmin bölgələrdə yaşayırlar?




Keldanilər isə assuriyalıların katolik hissəsini təşkil edirlər. Efes Şurasından sonra müstəqil diofizit kilsəsi quran keldanilər Yaxın Şərqdə və Hindistanda yayılıblar. 1553-cü ildən etibarən bəzi Nestorian xristianlar katolikliyi qəbul etdilər və Papanın səlahiyyətlərini qəbul etdilər - yeni qurulan bu kilsə Keldani kilsəsi, bu tarixdən sonra katolikliyi qəbul etmiş Şərq kilsəsi xristianları isə keldanilər adlanmağa başladılar. Bəzi tarixçilər isə Keldani adının bu xalqa katoliklikdən sonra verilmədiyini, bu adın qədim Cənubi Mesopotamiya xalqı olan keldanilərdən gəldiyini iddia edirlər. Keldanilərin katolikliyi qəbul etməyən hissəsi Hakkarinin mərkəzindəki Kodşanıs (Konak) kəndini uzun müddət patriarxlıq mərkəzi olaraq qəbul edib. Keldani patriarxları 1918-ci ilə qədər bu kənddə yaşayıblar. 1915-18-ci illərdə keldanilər əvvəlcə İranın Urmiyə bölgəsinə, daha sonra isə İngiltərənin nəzarətinə keçən İraqa sığınırlar. Bu gün Patriarxlığın Baş Qərargahı İraqda Bağdaddır. Onların patriarxı Lui Rafael I Sakodur. İraqın keçmiş lideri Səddam Hüseynin baş nazirinin müavini Tariq Əziz (Mikhail Con) dövrünün ən tanınmış keldanilərindən olub. Katolik Assuriyalılar (keldanilər) İraqda təxminən yarım milyon xristianın əksəriyyətini təşkil edir. Mosulda təxminən 50 min Keldani yaşayır.

### “Qondarma soyqırımı” iddiası əldən çıxır...

Zaman-zaman Assuriya və Keldani tarixini və mədəniyyətini mənimsəməyə çalışan ermənilər bu yolla özlərini “şərqin ən qədim xalqlarından” biri kimi qələmə verməyə niyyətlənib.

Hətta Osmanlı imperiyasında assurların və keldanilərin “soyqırıma” məruz qalması haqda yalanlar yaymaqla Türkiyəyə qarşı yeni təzyiq rıçaqları əldə etmək istəyiblər. Təbii ki, bu mümkün olmayıb - tarixi faktlar bu kimi iddiaları yerlə yeksan edir. Necə ki, 1925-ci ilə bağlı siyasi manipulyasiyalar edən ermənilərin oxu daşa dəyir, assur və keldanilərlə bağlı iddialar da birmənalı şəkildə istisna olunur. Maraqlıdır ki, Fransanın bu yeni-köhnə iddiaları “diriltməyə” çalışması Ermənistanın baş naziri Nikol Paşinyanın 1915-ci il hadisələri ilə bağlı yeni göstəriş verməsinin ardından reallaşdı - bəlli olduğu kimi, Paşinyan bu hadisələrdə həyatını itirən ermənilərin siyahısının tərtib olunmasını istəyir. Bu siyahı tərtibatı isə bütün həqiqətləri üzə çıxaracaq və Fransanın da bu yöndə apardığı təbliğatın puç olduğunu göstərəcək. Bunun nəticəsidir ki, Fransadakı erməni lobbisi əl-ayağa düşərək özləri üçün yeni “tutunacaq” axtarmağa başlayıb. Amma əsassız assur və keldani iddiaları onların heç bir işinə yaraya bilməz.



Bu fakt növbəti dəfə bir reallığı üzə çıxarır - Fransa bir dövlət olaraq uçurumun bir addımlığındadır. Bir ovuc erməninin maraqlarının əsirinə çevrilmiş bu dövlət özünü dünya ictimaiyyəti qarşısında rüsvay etməkdə davam edir. Bu kimi əsassız iddialar isə Parisin onsuz da yerlərdə sürünən “imici” üçün təhlükəlidir...

*S.İSMAYILZADƏ*

# Qərb “ demokrat dostunu” necə unutdu?

SSRİ-nin dağılması ilə Qərb post-İttifaq ərazisində özünün dayaqlarını formalaşdırmağa başladı. İllərlə bu yöndə “iş aparan”, “dostlar tapan”, onları “təlimatlandıran” və “hazırlaşdıran” Qərb yeni dönəmdə məhz bu yaratdığı siyasi fiqurlardan öz mənfəəti üçün istifadə etməyə başladı. Sirr deyil ki, cəmisi 20 ilə yaxın keçmişdə Gürcüstanda baş verənlər də məhz Qərbin ssenarisi üzrə həyata keçirdi. Elə Saakaşvilinin siyasi həyatına nəzər saldıqda bütün ştrixlər ortaya çıxır - 1992-ci ildə Osloda yerləşən Norveç İnsan Hüquqları İnstitutunda çalışan, 1993-cü ildə Strasburqda yerləşən Beynəlxalq İnsan Hüquqları İnstitutunun diplomuna layiq görülən, 1994-cü ildə “Edmund S. Muskie Graduate Fellowship” proqramı üzrə təqaüd qazanaraq Kolumbiya Universitetinin Hüquq elmləri fakültəsində magistraturaya daxil olan, 1995-ci ildə Corc Vaşinqton Universitetində dissertasiya müdafiə edərək doktorluq dərəcəsi qazanan Saakaşvili 1995-ci ildə Gürcüstan parlamentinin deputatı seçildi. 2000-ci ildə ədliyyə naziri vəzifəsinə təyin edilir, daha sonra Tiflis meri seçilir. 2004-cü ildə rəngli inqilab nəticəsində hakimiyyətə gələn Saakaşvili 2013-cü ilə qədər Gürcüstan prezidenti olur.

Daha sonra Ukraynaya gedən Saakaşvili orada da bəzi vəzifələrdə təmsil olunur. 2017-ci ildə isə Ukrayna vətəndaşlığından çıxarılır. Ukraynanın yeni prezidenti Volodimir Zelenski dövründə 2019-cu ilin may ayında Mixail Saakaşviliyə Ukrayna pasportu geri qaytarılır. 2021-ci ilin oktyabrında Mixail Saakaşvili ölkəsinə qanunsuz qayıtdıqdan sonra həbs edilir. Artıq 3 ildir ki, həbsdə olan Saakaşvili ilə bağlı zaman-zaman bəzi “bəyanatlar” verilsə də, Qərb öz keçmiş “dostunu” unudur. Hətta illərdir ki, keçirilən “Demokratiya sammit”lərinə quru dəvət belə göndərilməyib.



Yeri gəlmişkən, həbsdə olan Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Avropa İnsan Haqları Məhkəməsinə (AİHM) verdiyi iddiasını geri götürərək, səhhətinə görə həbs cəzasının ləğvini və xaricə müalicəyə göndərilməsini tələb edib. Bu barədə Gürcüstanın ədliyyə naziri Rati Breqadze brifinqdə məlumat verib. Qeyd edək ki, 6 fevral 2023-cü ildə Tiflis Şəhər Məhkəməsi və martın 2-də Tiflis Apellyasiya Məhkəməsi keçmiş prezidentin səhhətinə görə həbs cəzasını təxirə salmaqdan imtina etdikdən sonra Saakaşvilinin vəkilləri AİHM-ə müraciət etmək qərarına gəlmişdilər.

Göründüyü kimi, Qərb vaxtilə “demokratiya yayıcısı” kimi qələmə verilən “dostlarını” taleyin ümidinə buraxır. Halbuki, bir zamanlar Qərb Saakaşvilini az qala demokratiya sözü ilə paralelləşdirmişdi, onun addımlarını ən demokratik addımlar kimi asossasiya olunmasını təbliğ edirdi. Bəs necə oldu ki, Qərb Saakaşvilini “istifadəyə yararlılıq” siyahısından çıxarıb, hətta onunla bağlı bir nüansı önə çəkmir? Bu, “insan hüquq və azadlıqları” adı altında özünün maraq və planlarını təşviq edən siyasi güclərin əsl simasını üzə çıxarır. Məqsədli və süni şəkildə qabardılan, “qəhrəman”a çevrilməsi uğrunda geniş iş aparılan, fərqli maraqların təmsilçisi olanlar Saakaşvilinin durumundan ibrət götürməlidir. Yaxşı ki, çıxmış “demokrat” quru sözə belə layiq görülmür...

*MƏNSUR*

# Yeseninin ayaqyalın sevgilisi

**Aclığa qarşı rəqs**

"Azad rəqs"in banisi sayılan məşhur Amerika rəqqasəsi, modernist, mətbuatın "ayaqyalın ilahə" adlandırdığı Aysedora Dunkanın həyatının hər bir dönəmi insanları indiyə qədər heyəcanlandırmaqdadır. Bu qeyri-adi qadın gödək ömründə ağılasığmaz dərəcədə şöhrət qazanmış və faciə yaşamışdı.

Aysedora 27 may 1877-ci ildə Kaliforniya ştatının San-Fransisko şəhərində kasıb bir ailədə dünyaya gəlir. Müflisləşən atası dördüşaqlı ailəni ananın ümidinə buraxaraq onları tərk edir.

Məktəbin himayəsinə vermək üçün anası beş yaşlı Aysedoranın yaşının bir az artıq olduğunu söyləyir. Yaşına uyğun olmayan dərslərə həvəs göstərə bilməyən qızcığaz bezərək 13 yaşında məktəbi tərk edir. Aysedora elə həmin vaxtlardan rəqs və musiqi ilə ciddi məşğul olmağa başlayır.

Anası yaxşı piano çaldığına görə onlar təsəlli kimi ailədə həmişə musiqi eşidirlər. Sonralar qeyri-adi rəqs məktəbinin təməlini qoyan Aysedora uşaqlıq illərini belə xatırlayır: "Evdə yeməyə heç nə olmayanda anam pianonun arxasına keçər, Şuberti, Bethoveni ifa edərək bizi aclıqdan yayındırmağa çalışardı. Biz isə şənlənərək onun ətrafında ürəyimiz istədiyi formada rəqs edərdik. Rəqs ayaqqabım olmadığından mən həmişə ayaqyalın oynayardım. Aclığa rəqslə cavab verməyimiz bizi ruhən möhkəmləndirər, həyata hazırlayardı. Mən o vaxtdan ayaqyalın rəqs edirəm".

**Oteldə yanğın**

Aysedora tezliklə balaca bir truppada rəqqas rolunu alır və ailəsi ilə birlikdə San-Fransiskonun mərkəzinə qastrol səfərinə gedir. Burada rəqs zamanı onun azad plastikası, yellənən sadə geyimi, kəskin bədən jestləri və yalın ayaqları tamaşaçıları heyrətə gətirir.

Öz ifasını gecə klublarında nümayiş etdirmək istəyən Dunkan 18 yaşında Çikaqoya köçür. Onun məşhur "Dehli baleti", "Karnegi Holl" rəqslərini görmək istəyən tamaşaçılar gecə klublarını doldururlar. Klassik və xoreoqrafiya musiqisi altında plastik yunan rəqslərini improvizə edən ayaqyalın rəqqasə azad hərəkətləriylə insanların qəlbini rahat ovlaya bilir. Çikaqo mətbuatı dərhal haqqında yazıb onu "ayaqyalın ilahə" adlandırır.

Şöhrətin qanadları üzərində gəzən Dunkan özünün rəqs studiyasını təsis edərək yaratdığı azad rəqsin müəllimliyinə başlayır.

1898-ci ildə tale ona ilk zərbəsini endirir. Rəqqasənin yaşadığı "Vindzor" otelində güclü yanğın olur. Onun qiymətli əşyaları, topladığı varidatı külə dönür. Yanğından sonra həyatını sıfırdan başlamaq üçün tanıdığı mesenatların yardımı ilə Londona, oradan da Parisə gəlir.

**İlk sevginin acısı**

Heç bir kişini yaxınına buraxmayan, 25 yaşına qədər bakirəliyini qoruyan, feminist həyat tərzi yaşayan rəqqasənin dünyagörüşü bundan sonra tamam dəyişir. Cazibədar xanım özünün azad rəqs sənəti ilə tanındıqdan sonra Paris elitası arasında ehtiras ilahəsinə çevrilir. Məşhur aktyorlar, şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar, müğənnilər onunla eşq macərası yaşamağa can atırlar. Aysedora Dunkan gündəliyində bu sözləri məhz həmin vaxtlar yazmışdı: "Mənim bədənimə yalnız dahilər layiq ola bilərlər!"

İpə-sapa yatmayan Dunkan 1905-ci ildə məşhur teatr rejissoru Qordon Kreq ilə tanış olur. Qadın qəlbini ovlamaqda mahir olan ucaboy modernist rejissor onu ram eləyə bilir. Onların arasında çılğın sevgi macərası başlayır. Dunkan sonralar gündəliyində belə yazır: "Nəhayət, mən öz yarımı tapdım, biz birbirimizdə əriyib tamlaşmışıq, bir yerdə bütövük!"

Bir ildən sonra onların qızı Didra dünyaya gəlir. Xoşbəxtlik səmasında uçan Aysedora ailəsinə görə sənəti ikinci plana atmağa söz verir. Lakin yeni peyda olan pərəstişkarlar ailənin sakitliyini pozur, yalançı dedi-qodularla onları qıcıqlandırırlar. Nəhayət, Dunkanı populyarlığına qısqanan rejissor rəqqasədən ayrılmağa qərar verir.

Aysedoranın növbəti sevgilisi amerikalı zəngin Paris Ejen Zinger olur. Məşhur tikiş maşınlarının sahibi Ejen Aysedoraya bahalı paltar və bəzək əşyaları hədiyyə etməkdən zövq alır. Rəqqasə sevimli kişisi ilə öz yaxtalarında Avropa ölkələrinə səyahətə çıxır, sevgi dolu günlər yaşayır.

1910-cu ildə xoşbəxt cütlüyün Patrik adlı oğlu dünyaya gəlir. Ailə kənardan nə qədər xoşbəxt görünsə də, Ejen xanımını rəqqasəlik sənətinə qısqanmaya bilmir. Nəhayət, onlar öz aralarında razılaşaraq aqressiya göstərmədən xoşluqla ayrılırlar.

**Suda boğulan mələklər**

19 aprel 1913-cü ildə Aysedora öz uşaqlarını tərbiyəçi xanımla birlikdə Paris-Versal gəzintisinə yola salır. Gözlənilmədən maşının motoru Sena çayı yaxınlığında yatır. Sürücü düşüb mühərriki əl ilə işə salası olur. Motor işə düşən kimi maşın yerindən götürülüb Sena çayına düşür. Ətrafdakılar maşında fəryad qoparan uşaqların və qadının səsindən dəhşətə gəlirlər. Xilasedicilər onların yalnız cəsədini tapıb çıxara bilirlər.

Taledən növbəti ağır zərbəni alan Aysedora əsəb sarsıntısı keçirir. O, bir müddət həkim nəzarəti altında qalası olur. Sakit həyat tərzi üçün həkimlər onu dəniz kənarına yaxın bir yerdə yerləşdirirlər.

Bir axşam gəzintisi zamanı sahildə tənha qalan Aysedoranın gözünə əl-ələ tutaraq gülüşə-gülüşə sahildən dənizə tərəf qaçan uşaqlar görünür. Balalarının suda batacağından qorxub həyəcanlanan Dunkan onların siluetlərinin dalınca qaçaraq dənizə girir. Qəfildən özünü sulara qərq eləyən tənha qadının halından şübhələnən gənc italiyalı zabit onu xilas edir. Ölümdən qurtulan Aysedora isterika içərisində zabitə sarılaraq: "Mənə bir övlad bəxş elə!"- deyə qışqırır.



**Murad Köhnəqala**

**Qırmızı şərfli rəqqasə**

Doqquz aydan sonra Aysedora dünyaya gözəl bir oğlan uşağı gətirir. Körpəsini sinəsinə sıxaraq həyatın yenidən onun üzünə gülümsədiyini tibb bacılarına söyləyir. Lakin cəmi bircə saatdan sonra həkimlərə də məlum olmayan səbəbdən körpə ölür. Həyatın növbəti sarsıdıcı zərbəsini alan qadın anlayır ki, yalnız tənha yaşamağa məhkumdur.

Aysedora Dunkan bütün enerjisini toplayaraq yenidən öz sənətinə, ayaqyalın rəqs etməyə qayıdır. Modernist rəqqasə bu dəfə səhnəyə əlində uzun qırmızı ipək şərf çıxır. Şərfi ona həyat eşqini artırmaq üçün rəfiqəsi, həm də prodüseri Meri Desti hədiyyə etmişdi. Aysedoranın səhnəyə qayıtması haqda xəbəri bütün Avropa mətbuatı yazır.

O, yorulmadan konsertlər verir, azad rəqsi, bədəninin hərəkətləri ilə qəlbindəkiləri milyonlara danışır. Hara gəldi gedir: London, Berlin, Madrid, Vyana, Praqa...

Macarıstan səfəri zamanı bir qaraçı qadın ona belə deyir: "Yaxınlarda uzaq, həmişə soyuq, vəhşi ayılar yaşayan bir ölkəyə gedəcəksən. Sən əsil sevgini və xoşbəxtliyini orada tapacaqsan". Qarının sözlərinə yüngülcə gülümsəyən rəqqasə öncəgörməni əyləncə kimi qəbul edir.

**Yesenin qasırğası**

1921-ci ilin yazında gözlənmədən SSRİ rəhbərliyindən ölkədə öz rəqs məktəblərini açmaq üçün dəvət alan Aysedora çox sevinir. Qaraçı qarının nə vaxtsa ona vəd verdiyi xoşbəxtliyə ümidi artır.

Moskvada rəssam Georgi Yakulovun öz evində verdiyi ziyafət zamanı ona saman saçlı bir nəfər yaxınlaşaraq nəsə deməyə çalışır. Tərcüməçisi rəqqasə xanıma deyir: "Rusiyanın sevimli şairi Sergey Yesenin sizə şeir oxumaq istəyir".

Xanım şairin bu jestindən xoşlanaraq onu dinləmək istədiyini söyləyir. Yesenin həzin səslə rəqqasənin hüzurunda bir şeir oxuyur. Rusca başa düşməyən Aysedora "angel!" deyə qışqıraraq, əvəzində şairin dodaqlarından öpür. Yesenin də cavab olaraq onu öpür. Beləcə onlar bir-birini anlamadan tanış olurlar.

Yesenin həmin gecədən Aysedoranın yaşadığı yerə köçür. Uzun müddət gözə görünməyən şairin dostları onların eşq macərasını anlayışla qarşılaya bilmirlər.

Həmin vaxt Dunkanın 44, Yeseninin isə 27 yaşı vardı. Rəqqasənin rəfiqəsi onların bu yaxınlığından narahatlığını gizlətmir, onu ötəri şair hissinin qurbanı olmamağa çağırır. Bütün Moskva Yesenini rəqqasənin pullarına göz dikməkdə suçlayır.

Avropa və Amerika turnelərinə birgə çıxmaq üçün Aysedora Sergey Yeseninlə nikah bağlayır və özünə Yesenin familiyası götürür. Rəqqasə xanım Sergeyi Avropa ölkələrində gəzdirməyə, onun dünyagörüşünə təsir etməyə, şair kimi dünyada tanıtmağa çalışır. Lakin Avropada heç kimə lazım olmadığını, yalnız Aysedoranın əri kimi qiymətləndirildiyini duyan şair depressiyaya düşür. Mütəmadi araq içərək yaşadıqları oteldə dava salır, rəqqasənin əşyalarını satıb mənasız yerlərə xərcləyir. Onun kobud hərəkətlərinə mülayim yanaşan xanıma hətta əl qaldırır. Səhəri gün hər şeyi xatırlayaraq ağlayıb ondan üzr istəyir. Bütün bunlara baxmayaraq şairdən inciməyən, həmişə onu bağışlayan Aysedora bir gün ayıq vaxtı Yesenindən soruşur: "Düzünü de, sən artıq məni sevmirsən?"

Yesenin ona: "Ay axmaq qadın, bizimki bir ehtiras idi, o da sönüb getdi. Başa düş, mən artıq heç nə yaza bilmirəm!" - deyir.

Aysedora Yesenini Rusiyaya gətirib, özü Parisə qayıdır. Bu arada rəqqasə artıq özünü ağırlaşmış kimi hiss edir, qocaldığını fikirləşəndə dəhşətə gəlir. Bundan sonra heç bir kişiyə könül verməməyi qərara alır.

Aysedora 1925-ci ilin qışında Parisdə güzgü qabağında səhnəyə hazırlaşarkən Moskvadan teleqram alır: "Yesenin oteldə özünü intihar edib!"

Taleyin ona qarşı qəddarlığından dəhşətə gələn Aysedora yenidən toparlanaraq fəal həyata qayıtmağı qarşısına məqsəd qoyur. "Mən yanan Simurq quşu kimi yenidən öz külümdən qalxmalıyam!"

**Əcəl şərfi**

Yenə səhnə, yenə qeyri-adi rəqslər, yenə insanları fəlsəfi duyğulara qərq eləyən gözlənilməz jestlər! Novator rəqqasə getdikcə öz ritmini bərpa eləyir, bədəni vasitəsilə ötürdüyü hissləri getdikcə dərinləşdirir.

Yenidən aşiq olmağa da gücü çatır. Bu dəfə adi bir sürücüyə. Yunan allahlarına bənzətdiyi özündən xeyli cavan sevgilisinin adı Benua Falkettodur. Onun gözəl, üstü açılan idman maşını var.

14 sentyabr 1927-ci il. Fransanın Nitsa şəhəri. Aysedora dostları ilə axşam yeməyindən qalxır. Sevgilisi Benua ilə maşın gəzintisinə çıxacaq. Şampan şərabından yüngülcə meyxoş olan Aysedora boynundakı məşhur qırmızı şərfi yelləyərək maşının arxa oturacağında əyləşir. Və üstüaçıq maşından onu yola salmağa çıxan dostlarına əl edərək qışqırır: "Dostlar, mən uğura doğru gedirəm!"

Külək onun boynundakı ipək şərfin uclarını araxaya atır. Maşın yerindən tərpənir. Bu zaman rəfiqəsi Meri şərfin uclarının təkərə dolandığını görür. Maşının arxasınca qaçıb nə qədər qışqırsa da, onu eşidən olmur. Təkərin spisləri şərfi özünə yığaraq Aysedoranı boğur.

Hadisə yerinə toplaşanlar rəqqasənin ölümünə bais olan şərfi parça-parça edərək öz aralarında bölüşdürürlər.

Rəqqasənin məşhur filosof Nitsşenin təliminə ehtiram kimi yazdığı "Gələcəyin rəqsi" adlı kitabı tezliklə bestsellerə çevrilir. Aysedoranın geyinib rəqs etdiyi yellənən paltarlar Avropada uzun müddət dəbdən düşmür. Ölümündən sonra haqqında üç bədii film çəkilir.

Kolleksionerlər Aysedoranı boğan qırmızı şərfin hər tikəsini milyon dollarla qiymətləndirirlər.

# Ukrayna Qərbdən narazıdır

## Zelenski NATO-nu vəd olunmuş silah-sursatları vaxtında çatdırmamaqda ittiham edib

Rusiya-Ukrayna müharibəsində üstünlük hazırda rus ordusunun tərəfindədir. Buna səbəb Qərb tərəfdaşlarının, xüsusilə ABŞ-ın Kiyevə uzun müddət hərbi dəstək verməməsidir. Belə ki, ötən ilin payızında ABŞ Nümayəndələr Palatasının Ukraynaya hərbi yardımla bağlı qanunu qəbul etməməsi səbəbindən Vaşinqtonun Kiyevə dəstəyi dayanmışdı. Sözügedən sənəd Konqresdə yalnız on gün əvvəl təsdiqlənib. Prosesin bu qədər uzanması Ukraynaya baha başa gəlib. Ötən gün Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumata görə, rus qoşunları Donetsk vilayətindəki bir kəndi ələ keçirib, Xarkov vilayətində daha yaxşı mövqelər əldə edib və Ukraynanın bir sıra hücumlarını dəf edib. Rusiya Ukraynanın şərq və cənubunda təqribən 18 faiz əraziyə nəzarət edir. Ötən ilin sonlarından başlayaraq Rusiyanın irəliləyişi dayanmayıb. Bu ilin fevral ayında Ukraynanın Avdiyevka şəhərinin süqutundan sonra rus qoşunları daha da irəliləyib. Həmçinin Rusiya Müdafiə Nazirliyi qoşunlarının Avdiyevkanın şimal-qərbindəki Semenivka kəndini ələ keçirdiyini bildirib. Rusiya bölgədəki bir sıra digər kəndlərdə də Ukrayna qüvvələrini məğlub etdiyini iddia edib. Rusiya, həmçinin Xarkov vilayətinin Sınkivka bölgələrində və cəbhə xəttinin bir sıra digər nöqtələrində Ukrayna qoşunlarını məğlub etdiyini açıqlayıb.

### Rus qoşunları cəbhədə irəliləyir

Son günlər müəyyən ərazi itkisini Kiyev də təsdiqləyib. Ukrayna Silahlı Qüvvələrinin Baş Komandanı Aleksandr Sırski bildirib ki, ordu Donetsk vilayətinin Berdıçi, Semenovka və Novomixailovka yaşayış məntəqələrindən qərbə doğru geri çəkilib. Bu, şəxsi heyətin həyatını xilas etmək üçün edilib. O qeyd edib ki, rus qoşunları Avdeyev və Marinkanın qərbində hücum xəttini inkişaf etdirməyə çalışır. Onların məqsədi Donetsk vilayətində Pokrovsk və Kuraxovoya daxil olmaqdır. Sırski vurğulayıb ki, ruslar bu ərazilərdə müəyyən taktiki uğurlar əldə etsələr də, əməliyyat üstünlüyünə malik deyillər.

### Zelenski: NATO üç razılaşmadan ikisini yerinə yetirməyib

Yaranmış vəziyyətə görə Ukrayna Prezidenti Volodimir Zelenski Qərb tərəfdaşlarını tənqid edib. O, aprelin 29-da Kiyevdə NATO-nun Baş katibi Yens Stoltenberqlə birgə mətbuat konfransında deyib ki, NATO razılaşmalara əməl etməyib. Zelenskinin sözlərinə görə, NATO Ukrayna Silahlı Qüvvələrinə dəstək üçün üç mühüm bənddən ikisini yerinə yetirməyib: "Birinci məqam maliyyədir ki, bu, ikitərəfli səviyyədə həm tərəfdaşlar, həm də ABŞ tərəfindən müsbət qarşılanıb. İkinci məqam silahların vaxtında çatdırılması, üçüncüsü isə Ukraynaya tam olaraq nəyin çatdırılmasıdır. Şimali Atlantika Alyansı göstərilən şərtlərdən yalnız birincisini yerinə yetirib".



Prezident qeyd edib ki, ABŞ-ın təsdiq etdiyi hərbi paket çərçivəsində yardım artıq Ukraynaya gəlməyə başlayıb. Zelenski konkret nəyin gəldiyini açıqlamayıb: "Ancaq təəssüf ki, hər şey ordumuzu və müvafiq sayda briqadaları təmin etmək üçün kifayət deyil. Ordumuza vaxtında dəstək lazımdır. Bu gün mən hələ bu məsələdə müsbət bir dəyişiklik görmürəm". O, təhlükəsizlik sazişlərinin imzalanmasının vacibliyindən də danışıb və əlavə edib ki, təhlükəsizliyi təmin edən sənədlər həqiqətən onlara çox kömək edir.

Bundan başqa, Zelenski deyib ki, Kiyev və Vaşinqton nümayəndələri yaxın on il üçün Ukraynaya hərbi və maliyyə dəstəyinin həcmi ilə bağlı danışıqlar aparır. Onun sözlərinə görə, Ukrayna və ABŞ ikitərəfli təhlükəsizlik sazişi üzərində işləyir: "Biz bu il və növbəti on il üçün xüsusi dəstək səviyyələrini təyin etməyə çalışırıq. Söhbət hərbi, maliyyə və siyasi dəstəkdən, eləcə də birgə silah istehsalından gedir".

NATO Baş katibi Yens Stoltenberq isə bildirib ki, NATO müttəfiqləri müharibənin ilk günündən indiyədək görünməmiş həddə Ukraynaya hərbi yardım ediblər. O, Ukraynaya son aylar hərbi yardımın gecikməsinə də toxunub: "Mən anlayıram ki, gecikmələrin döyüş meydanında ciddi nəticələri oldu. ABŞ aylarla davam edən müddətdə hərbi yardım paketini təsdiqləyə bilmədi, Avropa müttəfiqləri vəd etdiyi həcmdə silah-sursatı Ukraynaya təmin edə bilmədi. Ukrayna aylarla silah-sursatsız qaldı. Bu isə o deməkdir ki, Rusiya qüvvələri cəbhə boyu təzyiq edə bildi". Amma Stoltenberq vurğulayıb ki, Ukraynanın qalib gəlməsi üçün hələ də gec deyil və daha çox dəstək yoldadır.

Baş katib qeyd edib ki, NATO müttəfiqləri Ukraynaya yardımın sürətləndirilməsi və artırılması barədə razılığa gəlib. O, ABŞ, Böyük Britaniya, Almaniya və Niderlandın Ukraynaya hərbi yardımla bağlı elanlarını xatırladıb: "Mən ümid edirəm ki, daha çox ölkə bu yardımlara qoşulacaq və bu mənada tezliklə yeni yardım bəyanatları gözləyirəm. Biz Ukraynanın təcili ehtiyaclarını qarşılamaq üçün çalışırıq. Mənim mövqeyim hər zaman aydın olub. Mən bildirmişəm ki, əgər müttəfiq ölkələr NATO-nun hərbi büdcəsi üzrə tələbləri qarşılamaq, yoxsa Ukraynaya dəstək verməklə bağlı seçim qarşısında qalsalar, onlar Ukraynaya dəstək verməlidirlər. Boşalan hərbi anbarları doldurmaq olar, ancaq itirilən həyatları geri qaytarmaq mümkün deyil".

### Kiyevə yenə də NATO üzvü olmaq vədi verilib

Yens Stolteneberq Ukrayna Prezidenti Vladimir Zelenskini NATO-nun Vaşinqtonda keçiriləcək sammitinə də dəvət edib. Baş katib əlavə edib ki, Ukraynanın haqlı yeri NATO-dadır, Ukrayna NATO-nun üzvü olacaq: "Bu gün bizim qət etdiyimiz yol onu NATO üzvlüyünə yaxınlaşdırır. Vaxtı çatan kimi Ukrayna dərhal üzv olacaq". Sonrakı cümləsi ilə o, dolayısı ilə təsdiqləyib ki, bu dediklərinə özü də inanmır. "Ukraynanın NATO-ya üzv olması üçün 32 müttəfiq buna razılıq verməli, bunun reallaşması üçün konsensus olmalıdır. İyulda keçiriləcək sammitə qədər bu konsensusun olacağını gözləmir"-deməklə Stolteneberq əslində etiraf edib ki, Kiyevin alyansa qəbulu hazırda xəyal kimi görünür. Sadəcə, NATO rəsmiləri və müttəfiqləri "Ukrayna alyansa üzv olacaq" söyləməklə Kiyevi təskinlik verir və Rusiya ilə müharibəni davam etməsinə sövq edir. Müharibənin fəsadları isə Ukrayna xalqı üçün faciələr yaşatmaqda davam edir.

***Nardar BAYRAMLI***

# "Sinxron düşüncələrin"girdabında...

## Əli Kərimlinin növbəti məsuliyyətsizliyi

Azərbaycanın siyasi palitrasında redikül müxalifət düşərgəsinin təmsilçilərinə yer yoxdur. AXCP sədri Əli Kərimli başda olmaqla bu düşərgədə yer alanlar siyasət marafonunda, necə deyərlər, autsayderlər qismində çıxış edirlər. Onların boğazdanyuxarı səsləndirdikləri təkliflər bir qayda olaraq havadan asılı qalır, çağırışlarına da səs verən tapılmır, özləri deyib, özləri eşidirlər. Redikülların son mitinq anonsu buna ən bariz nümunədir. Cəmiyyətdə bu çağırış heç bir reaksiya doğurmadı, insanlar bunu biganə qarşıladılar.

Redikülların cəmiyyətin dəstəyindən məhrum qalmalarının yeganə səbəbi isə sırf onların zaman-zaman sərgilədikləri əməlləri ilə bağlıdır. Hər kəs təsdiqləyə bilər ki, redikülların fəaliyyətləri (əslində, fəaliyyətsizlikləri - red.) ilə Azərbaycan cəmiyyətinin milli maraqları arasında hər hansı bir bağlılıq yoxdur. Əksinə, burada çoxlu sayda suallar doğuran məqamlar sadalamaq mümkündür. İkrah doğuran məqamlardan biri redikülların "Beşinci kolon" roluna çıxış etmələridir. Onların xaç atası sayılan AXCP sədri Əli Kərimli Qənimət Zahidin, filankəs O. qızının efirlərində belə bir ifadə işlətməyi çox xoşlayır: "Bizim dediklərimizi Avropa təsisatları da təsdiqləyirlər". Reallıqda Əli Kərimli bu ifadəsi ilə bağlı olduğu Qərbdəki Azərbaycanafob dairələri nişan verir. Bəli, redikülların Qərbdəki əsasən ermənı lobbisinə bağlı olan bəlli mərkəzləri çirkin işbirliyi bağlayır. Daha dəqiq desək, həmin dairələr mütəmadi qaydada redikülləri yığnağına qrantlar formasında maliyyə transları ayırır. Redikülləri ram edən də elə bu pullardır. Onlar aldıqları paraların əvəzini Azərbaycanın milli maraqları ilə ziddiyyət təşkil edən fikirlər səsləndirməklə, əməllər ortaya qoymaqla ödəməyə çalışırlar. Əli Kərimlinin yuxarıda xatırlatdığımız ifadəsində isə bir qədər düzəliş etmək lazım gəlir. Reallıqda Qərb dairələri yox, redikülların özləri təkrarçıdırlar. Məhz onlar bəlli mərkəzlərin dediklərini təkrarlayırlar. Əks halda redikülların Azərbaycanafob dairələrin "düşüncələrində" sinxronluq haradan qaynaqlanır?

Redikülların sosial platformalar üzərindən son vaxtlarda gündəmə gətirdikləri yeni mövzu da buna bariz nümunədir. Söhbət həm Qərb dairələrinin, həm də redikülların paralel şəkildə Azərbaycanda insan haqları sarıdan "narahatlıq" keçirmələrindən gedir. Bəli, ölkəmizdə hüquq-mühafizə orqanları tərəfindən bir neçə həbs həyata keçirilib. Burada qəribəlik axtarmağa nə ehtiyac var? Dünyada həbslərdən xali olan ölkə yoxdur. Həbsə alınanlar da fəaliyyət sferaları nöqteyi-nəzərindən bir-birlərindən fərqlənirlər. İstisnasız olaraq bütün bəşər sahibləri hansısa bir qanunsuzluğa yol verə bilərlər. Bunun qarşısını almaq üçün isə hüquq-mühafizə orqanları var. Kimi həbsə almaq, kimə hansı cəzanı vermək məhz onların işidir. Siyasilərin bu, kimi prosedurlara müdaxilə etmələri yolverilməzdir və bu, məsuliyyət yaradır. O başqa məsələdir ki, redikülllərdə məsuliyyət hissi yerlidibli yoxdur. Zamanında Əli Kərimlinin də təmsil olunduğu iqtidar bir illik hakimiyyəti dövründə yaratmaz fəaliyyəti ilə Azərbaycanı qanlı vətəndaş qarşıdurmasına sürükləmişdi. Aradan təxminən üç onillik ötsə də, Əli Kərimli və çiyindaşları öz günahlarını və məsuliyyətlərini etiraf etməyiblər. Ölkədəki həbslərdən danışan AXCP sədri yenə də biveclik, məsuliyyətsizlik nümayiş etdirir. Ona xatırlatma etmək istərdik ki, Azərbaycan hüquqi dövlətdir. Ölkəmizdə heç kimin peşə fəaliyyətinə əngəllər yaradılmır. Eyni zamanda, söhbət hansısa konkret cinayət əməlindən gedirsə, burada heç kimə şans verilmir və verilməməlidir də!

AXCP sədri Azərbaycan rəhbərliyinin müxtəlif məkanlarda ayrı-ayrı dövlətlərin rəsmiləri ilə insan hüquqları mövzusunda müzakirələr apardığından sonra ölkədə hansısa həbslərin baş verməsini özüsayağı qınaq obyektinə çevirməyə çalışır. Yenə də absurd yanaşma ortadadır. Azərbaycan tam mənada müstəqil dövlətdir, siyasətini özü müəyyənləşdirir. Ayrı-ayrı beynəlxalq platformalarda insan hüquqları ilə bağlı müzakirələrin aparılması Azərbaycanın öhdəlik götürməsi anlamında təqdim edilməsi Əli Kərimlinin növbəti manipulyasiyası və məsuliyyətsizliyidir.

***MÜBARİZ***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# 1 may niyə və necə qeyd edilirdi?

## Beynəlxalq Əmək Günüdür



Bu gün yorulmadan çalışan, əziyyət çəkən zəhmətkeşlərin bayramıdır. Mayın 1-i bir çox ölkələrdə “Beynəlxalq zəhmətkeşlər bayramı” kimi qeyd olunur. 1 May vaxtilə keçmiş Sovet İttifaqında xüsusi təntənə ilə qeyd olunduğundan demək olar ki, proletariatın bayramı kimi təqdim edilirdi. Lakin bu bayram bir çox ölkələrdə də qeyd olunur.

Ayrı-ayrı dövrlərdə 1 May bayramı fərqli adlar daşıyıb: Dünya Fəhlələrinin Həmrəylik günü, Dünya Zəhmətkeşlərinin Həmrəylik günü, Əmək günü, Beynəlmiləlçilik günü, Əmək və Bahar günü və s.

Yeri gəlmişkən, 1 May bayramı ilə bağlı ayrı-ayrı ölkələrdə zaman-zaman yeni ənənələr də yaranıb. Məsələn, həmin gün Fransada qızlara zanbaq gülü hədiyyə edilir. İtaliyada isə gül festivalı keçirilir. Almaniyada bayram münasibətilə yarmarkalar açılır. Həmin yarmarkalarda sakinləri rəqs və digər əyləncələrlə qarşılayırlar. İsveçdə isə mayın 1-də isveçlilər evdən çıxardıqları tullantıları yandırırlar.

SSRİ dağıldıqdan sonra Rusiyada bu bayram Əmək və bahar bayramı, Finlandiyada tələbələrin bahar karnavalı kimi qeyd edilir. 1996-cı ildən Qazaxıstanda 1 May tarixi xalqın birlik bayramı elan olunub. İngiltərədə həmin gün milli paltar geyinən sakinlər rəngli lentlər bağlanmış dirəklərin ətrafında rəqs edərək dünyaya sülh və əmin-amanlıq arzulayırlar. Belarusda, Qırğızıstanda, Çində, Şri-Lankada 1 May bayramı əmək bayramı adı ilə qeyd olunur.

**Bayramın tarixi haqda nələri bilirik?**

Qeyd edək ki, ilk dəfə 1856-cı ildə Avstraliyada 8 saatlıq iş gününün tətbiq edilməsi ilə bağlı bayramın qeyd olunması ortaya çıxıb. Bu ölkədə yerli işçilər artıq toplantı və əyləncə ilə əlaqədar səkkiz saatlıq iş gününün lehinə nümayiş olaraq bir günlük özlərini tamamilə işdən azad etməyi qərara alıblar. Bununla da proletar bayramı ortaya çıxıb, daha sonra digər ölkələrə yayılıb və getdikcə bütün proletar dünyasını fəth edib. Avstraliyalı əməkçilərin bu nümunəsini daha sonra amerikalılar təkrarlayıb. Belə ki, 1 May 1886-cı ildə, demək olar ki, bütün sənaye mərkəzlərində - Nyu-York, Çikaqo, Filadelfiya və Baltimorda 200 mindən çox işçi boykota başlayıb. Çikaqoda 80 min fəhlə haqları olan “8 saatlıq iş günü” tələbi altında sıx sıralarla möhtəşəm yürüş keçirib.

Ümummilli boykotun və aksiyaların yayılmasından qorxan sahibkarlar silahlı əsgərlərlə yanaşı, həm də casus provakatorlar tutaraq hücuma keçib. 3 may günü “McCormic” fabrikinin qarşısında onlara qatılmayan digər işçiləri boykota qoşulmağa çağıran silahsız işçilərə atəş açılıb və bir işçi öldürülüb. İşçilər bu qanlı hadisəni protest etmək üçün mitinq keçirmək qərarına gəliblər.

4 may günü işçilər daha güclü bir mitinq təşkil ediblər. Mitinqin qurtarmasına az qalmış yüzlərlə polis meydana girib. Bir az sonra isə mənşəyi və haradan gəldiyi bəlli olmayan bir bomba polislərin olduğu yerə düşüb. Bomba atılandan sonra mitinq bölgəsi qanlı savaş meydanına çevrilib. İşçilər güllə yağışına tutulublar. 4 işçi və 7 polis ölüb, onlarla işçi isə yaralanıb. Həmkarlar ittifaqlarının sədrləri və işçi hərəkatının 8 lideri tutulub.

Məhkəmədən sonra fəhlə hərəkatının liderlərindən olan 4 şəxs - Avgust Spies, Albert Parsons, Corc Engel və Adolf Fişer edama məhkum ediliblər.

1889-cu ilin iyulunda Parisdə toplanan II İnternasionalın 1-ci Konqresində 1 May tarixi dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edilib. Hər ilin 1 May tarixini mitinqlər, aksiyalar və boykotlarla qeyd etmək qərarı alınıb. Sovet İttifaqında bu bayram dünyada ən möhtəşəm səviyyədə keçirilirdi. Mayın 1-də şəhərlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əhval-ruhiyyəsi hökm sürərdi. Peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilər, Sovet İttifaqının paytaxtına - Moskvaya dünyanın bütün ölkələrindən dəvət olunan qonaqlara sosializmin nəyə qadir olduğu nümayiş etdirirlərdi.

**1 Mayı hansı ölkələr kütləvi şəkildə qeyd edir?**

Hazırda dünyanın 100-dən artıq ölkəsində ictimai bayram kimi, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü olaraq qeyd edilir. Onların arasında Rusiya, İspaniya, Portuqaliya, Yunanıstanı qeyd etmək olar. Xüsusən də Çin, Şimali Koreya, Vyetnam, Kuba, Venesuela, Bolivyada bu bayram kütləvi şəkildə qeyd olunur. ABŞ və Yaponiyada 1 May bugünkü tarixdə deyil, başqa təqvimdə qeyd edilir.

Əksər 1 May nümayişləri dinc şəkildə və insidentsiz başa çatsa da, bəzən planlı qarşıdurmalar da yaradılır. Bəzi ölkələrdə bayram günü nümayişə çıxan işçilərin qanı tökülür. İndiyə kimi 1 May nümayişlərində 1000-dən çox insan öldürülüb.

*Yeganə BAYRAMOVA*

# “Kiçik planet”...

## Pluton necə kəşf olundu?

Bəlkə də Günəş sistemində olan planetlər haqqında ən az məlumata sahib olduğumuz planet məhz Plutondur. Bildiklərimiz məhdud olsa belə, planet haqqında məlum olanlar, onun ən maraqlı planetlərdən biri olmasını təmin edir. Məsələn, onun Günəş ətrafında bir tur atması 248 il çəkir. Kəşf edildiyi 1930-cu ildən bu yana orbitinin yalnız 3-də 1-ni qət edə bilib. Digər maraqlı məlumat isə odur ki, ilk dəfə kəşf edildiyi nöqtəyə 2178-ci ildə gəlib çatacaq.

Pluton kəşf ediləndə alimlər ən yaxşı ad üçün müsabiqə də keçiriblər. Adla bağlı bütün dünyadan təkliflər yağmışdı. Oksford sakini, 11 yaşlı Venesiya Berni düşündü ki, bu planet üçün ən yaxşı ad qədim yunan mifologiyasının yeraltı dünyasının tanrısı Plutonun adı daha uyğundur.

Louell rəsədxanasında üç ad səsverməyə çıxarıldı: Pluton, Minerva və Xronos. Venesiyanın təklif etdiyi ad seçildiyi üçün ona 5 funt sterlinq mükafat verildi.

Plutonun astronomik simvolu PL-dir. Bu, Günəş sistemində belə bir planetin mövcudluğunu əvvəlcədən deyən astronom Persival Louelin adının baş hərfləridir. Rəsədxana da alimin şərəfinə adlandırılıb.

**Plutonun kəşfi...**

Pluton ilk dəfə 1930-cu ildə Klayd Tombo tərəfindən kəşf edilib. Klayd Tombo ölümündən sonra ulduzlararası səfər edən ilk insan olub. Tombonun nəşi yandırılıb və külü NASA-nın planetlər arası avtomatik stansiyasına qoyulub. Beləliklə, bu aparat 2006-cı ildə Plutona uçub.

**“Cırtdan planet”...**

2006-cı ildə Plutonun statusu aşağı salındı və “N 134340” adlı cırtdan planetə çevrildi. Pluton 76 il planet statusu daşıyıb. Amma 2005-ci ildə alimlər Plutondan 27% ağır olan Eridanı kəşf etdilər. Bu kəşfdən sonra Pluton cırtdan planet adlandırıldı.

**Plutonun peykləri...**

Plutonun 5 peyki var. Onlardan ən böyüyü Xaron adlanır və diametri Plutonun diametrinin yarısı qədərdir. Plutonun digər peykləri isə bunlardır: Stiks, Nikta, Kerber və Qidra.

Qeyd edək ki, Pluton yeganə planetdir ki, atmosferi azot, metan və karbon monooksiddən ibarətdir. Bu atmosfer insan üçün zəhərlidir və Günəşə yaxınlığına görə dəyişir. Pluton Günəşə daha yaxın olanda atmosfer qazla dolur. Maksimal uzaq məsafədə isə qara çevrilir və planetin səthinə yağır.



**Plutondakı yeraltı okean**

Plutonda suyu donmuş yeraltı okean var. Onun dərinliyi 100-180 km-dir. Bu isə cırtdan planetdə Yerə nisbətən 3 dəfə çox suyun olması mənasına gəlir. Planetin qalan hissəsi isə sərt dağlardan və donmuş azotdan ibarətdir.

**Tərsinə dövr edir...**

Pluton Venera və Uran kimi tərsinə dövr edir. Bu isə onun Yerin əksinə dövr etdiyindən xəbər verir. Günəş qərbdə doğur, şərqdə batır. Pluton bir dövrü 1 həftəyə başa vurur.

**Plutonlaşdırma**

2006-cı ildə Pluton cırtdan planet təyin ediləndə ABŞ-ın dialektoloji cəmiyyəti plutonlaşdırma feli kəşf etdi. Bu feli kimisə dəyərdən və ya rütbədən salmaq üçün istifadə edirlər.

**Pluton planetdir, yoxsa asteroid?**

1970-ci illərə gəldikdə isə alınan görüntülərə əsasən Plutonun labut şəklində olduğu məlum oldu. Bunun səbəbi isə Şaron adlı bir peykə malik olması idi. 1990-cı illərdə isə artıq daha böyük bir sual yarandı: Pluton planetdir, yoxsa asteroid?

Dünya “cırtdan planet” haqqında minilliklə birlikdə daha çox məlumat sahibi olmağı gözləyərkən, 2006-ci ildə Beynəlxalq Astronomiya İttifaqı tərəfindən Plutonun tam bir planet olmadığı açıqlanıb. Səbəb kimi isə elə də elmi əsaslara söykənməyən, Neptundan sonrakı Kuiper zolağı içərisində Pluton böyüklüyündə və hətta ondan daha böyük çox sayda meteorit olduğunu irəli sürdülər.

*Yeganə BAYRAMOVA*

## *İdman*

# “Qarabağ” - “Neftçi” oyununun stadionu dəyişdirilib

Azərbaycan Premyer Liqasının XXXIII turunun “Qarabağ” - “Neftçi” oyununun stadionu dəyişdirilib.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, təşkilati məsələlərlə əlaqədar olaraq, görüş “Azersun Arena”da oynanılacaq.



Mayın 4-də oynanılacaq qarşılaşma saat 19:30-da start götürəcək.

Qeyd edək ki, daha əvvəl matçın Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcəyi açıqlanmışdı.

# Avropa çempionu olan Azərbaycan şahmatçısı mükafatlandırılıb

Yunanıstanın Rodos adasında qadın şahmatçılar arasında keçirilən Avropa çempionatının bağlanış mərasimi olub.



Azərbaycan Şahmat Federasiyasından AZƏRTAC-a bildiriblər ki, qitə birinciliyinin qalibi Ülviyyə Fətəliyevaya qızıl medal və kubok təqdim olunub. Qalib şahmatçının şərəfinə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə həmçinin müxtəlif nominasiyalar üzrə ən yaxşı performans nümayiş etdirən iti zəka sahibləri təltif olunublar. Təmsilçilərimizdən Günay Məmmədzadə və Səbinə İbrahimova xüsusi mükafata layiq görülüb.




# “Nar” hər kəsə sərfəli günlük internet paketlərini təqdim edir

Sərfəli qiymət biznes istiqamətinə sadiq qalan “Nar” hər kəs üçün geniş seçim yaradan 6 növ günlük və həftəlik internet paketlərini təqdim edir.

Qısamüddətli internet istifadəsi üçün nəzərdə tutulan 1 günlük internet paketlərinin qiyməti 300 MB üçün 80 qəpik, 1GB üçün 1,40 manat və 1,5 GB üçün 1,90 manatdır. Üstəlik, 1 GB-lıq və 1,5 GB-lıq günlük paketlərdən istifadə edənlər eyni müddət ərzində “WhatsApp”dan pulsuz istifadə edə bilər.

“Nar” abunəçilər eyni zamanda 7 günlük internet paketlərini də seçə bilərlər. Bu paketlərin qiyməti 1 GB üçün 3 manat, 1,5 GB üçün 3,30 manat və 3 GB üçün 5 manat kimi dəyişir. Bütün 7 günlük internet paketlərində “WhatsApp” yazışmaları pulsuzdur.

İnternet paketləri haqqında daha ətraflı məlumat əldə etmək və sizə uyğun ən sərfəli internet paketini seçmək üçün nar.az/senin-ucun/internet-paketleri/ səhifəsinə keçid edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Mingəçevir “Prezident Kuboku-2024” beynəlxalq reqatasına hazırdır

Ümummilli Lider Heydər Əliyevin 101-ci il dönümünə həsr edilən avarçəkmə üzrə “Prezident Kuboku-2024” beynəlxalq reqatasının başlamasına bir gün qalıb.

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yarışın təşkilati işləri artıq başa çatıb. Mingəçevir şəhəri ənənəvi reqataya hazırdır. Şəhərin mərkəzi küçələri reqatada iştirak edəcək ölkələrin bayraqları ilə bəzədilib, lazımi təmizlik-abadlıq işləri aparılıb. Sakinlər hər il təşkil edilən “Prezident Kuboku”nun şəhərdə əsl bayram ab-havası yaratdığını deyir. Ölkəmizdə avarçəkmə idmanının vətəni sayılan Mingəçevirdə hər kəs yarışların başlamasını gözləyir.

Yığma komandanın üzvü Diana Dımçenkonun “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya qazanması təşkil olunacaq reqataya xüsusi rəng qatır.



Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan “Prezident Kuboku-2024” beynəlxalq reqatasına 20-dən çox ölkədən 30-a qədər komanda qatılacaq. Yarışlar mayın 1-i Suqovuşanda start götürəcək, 2-3 may tarixində Mingəçevir Kür Olimpiya Tədris-İdman Mərkəzində davam edəcək.

Mayın 3-də Mingəçevirdə “Prezident Kuboku-2024” beynəlxalq reqatasının bağlanış mərasimi olacaq. Bağlanış mərasimində əvvəlcə qaliblər mükafatlandırılacaq. Kayak-kanoe və akademik avarçəkmə üzrə kuboklar sahiblərinə təqdim ediləcək. Daha sonra bağlanış mərasimi bədii hissə ilə davam edəcək. “Prezident Kuboku” reqatasına atəşfəşanlıqla yekun vurulacaq.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək “Prezident Kuboku” reqatası ardıcıl ikinci ildir Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib.

# Azərbaycan gimnastı: Qazandığım medal Azərbaycan üçün tarixi məqamdır

“Qazandığım medala görə çox xoşbəxtəm. Bu, Azərbaycan üçün tarixi məqamdır”.

AZƏRTAC xəbər verir ki, bu sözləri İtaliyanın Rimini şəhərində keçirilən Avropa çempionatında gümüş medal qazanan Azərbaycan gimnastı Nikita Simonov jurnalistlərə açıqlamasında deyib.



O, yarışın kifayət qədər çətin keçdiyini bildirib: “Aprelin 20-də Qətərin paytaxtı Dohada keçirilən yarışdan sonra Avropa çempionatına hazırlaşdıq. Düzdür, çətin olsa da, biz bu cür situasiyalara öyrəşmişik”.

Tarixi nəticə qazanan gimnast bundan sonra iştirak edəcəyi yarışlarda daha böyük uğurlar qazanmaq üçün əlindən gələni edəcəyini söyləyib.

N. Simonov bu nəticə ilə Azərbaycanın kişi idman gimnastikası tarixində Avropa çempionatlarında əldə edilmiş ilk medalın sahibi olub.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5567
Sifariş: 980
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova